# YAZARLAR

**(aylıq ədəbi-bədii, elmi jurnal)**

**İyun 2023 (30)**

(2021-ci ildən çıxır)

**Təsisçi və baş redaktor:** Zaur Ustac.

**Texniki redaktor:** Tuncay Şəhrili.

**Məsul katib:** Araz Şəhrili.

**Yaradıcılıq məsələləri üzrə menecer:** **Şəlalə CAMAL**

**Ədəbi tənqid məsələləri üzrə menecer:** **Sərvanə DAĞTUMAS**

**İctimaiyyətlə əlaqələr üzrə menecer:** **Nəzakət EMİNQIZI**

**Fəxri redaksiya heyəti:** Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə.

**Redaksiya heyəti:** Ayətxan Ziyad (İsgəndərov), Akif Abbasov, Mahirə Nağıqızı, Vüqar Əhməd, Təranə Məmməd, Aydın Xan Əbilov, Seymur Sönməz (Paşayev), Kamal Camalov, Leyli Nur Novruzova, Aysel Nazim, Nuranə Rafailqızı, Səma Muğanna, Şəlalə Camal, Əli bəy Azəri, Ülvi Aydın, Fəridə Abdul, Taleh Xəlilov, Zaur Ərmuğan, Leyla Yaşar, Yadigar Təvəkgül, Aytac İbrahim, Mövlud Ağaməd, Əsgər Ordubadlı, Alik Dənizsevər , Rafiq Hümmət (Gürcüstan), Leyla Oruc, Faruk Habiboğlu (Türkiyə), Əbülfəz Əhməd (Almaniya), Günay Əliyeva (Norveç). Caroline Laurent Turunc (Fransa)

# BU SAYIMIZDA

Baş redaktordan ........................................................ 3
Yazarlar jurnalı ........................................................ 4
Sərvanə Dağtumas. Azər Qismətin "Ana söyüşü". ............ 5
Atakişiyeva Həcər. İsmayıl Şıxlının "Dəli Kür"ü ............... 9
Zaur Ustac. İlham Qazaxlı -50............................................ 14
Məmməd Mərzili. Qısa hekayələr ..................................... 18
Murad Məmmədov. Yeni şeirlər. ....................................... 28
Səadət Qərib. Şeirlər........................................................ 43
Bəsirə Abbasova. Heydər Əliyev -100. ............................. 50
Gülşən Behbud. **Mahirə Nağıqızının "Vətən" görüşləri**.. 54
***Təqdimatlar*** ........................................................ 68
***Doğum günü təbriki*** ................................................ 72
***Foto qalareya*** ....................................................... 73

Salam olsun, Azərbaycanın ilk hibrid jurnalı olan "Yazarlar"ın çox dəyərli yazarları və oxucuları! Bizim yalnız bir məqsədimiz var ki, o da ***"Yaradıcı uşaq - gənclərin dövrü mətbuatda çıxışını asanlaşdırmaq , onların tanınmasına köməklik göstərmək"*** olmaqla məramnaməmizdə aydın şəkildə qeyd olumuşdur. Aylıq ədəbi-bədii, elmi jurnal olan "Yazarlar" kitabxanalar üçün ənənəvi qaydada məhdud sayda nəşr olunur və elektron formatda bir neçə sabit, dayanıqlı, təhlükəsiz platformadan PULSUZ olaraq yayımlanır. Jurnalın bu günə qədər çap olunmuş bütün nömrələrini **BİTİK.AZ saytından sifariş yolu ilə əldə edə bilərsiniz. Eyni zamanda Wahtsapp:** (+994) 70-390-39-93

"YAZARLAR, ANCAQ YAZARLAR…" © YAZARLAR



**Zaur USTAC**

## BAŞ REDAKTORDAN

Salam olsun, dəyərli oxucular!

Jurnalımızın İyun 2023-cü il (30-ciu sayı) ilə görüşünüzə gəlmişik. Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında daim müdrik siyasi lider həmçinin müasir müstəqil Azərbaycanın qurucusu kimi yaşayır! Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Müasir Azərbaycanın tarixi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır! Məlum olduğu kimi "Yazarlar" olaraq bu ilə kiçik töhfə vermək məqsədilə jurnalımızın May 2023-cü il (29 ) sayını "Heydər Əliyev -100" başlığı ilə Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr etmişik. Bu sayda dərc olunmuş yazılardan ibarət xüsusi buraxılş nəşr olunmuşdur. Poçtumuza yazı göndərən şəxslərə bildirmək istəyirəm ki, mövzuya uyğun göndərilmiş bütün normal yazılar növbəli şəkildə dərc olunacaq. Bu sayda həmçinin may ayında baş tutmuş təqdimatlar, görüşlər haqqında yazılar və təbriklər yer alıb. Beləliklə ilin altıncı, ümumi 30 –cu buraxılışımızı diqqətinizə təqdim edirik. Buyurun, tanış olun.

## “YAZARLAR” JURNALI

**“Yazarlar” jurnalı öz işini aşağıdakı prinsiplər və sturuktur əsasında qurur:**

- Jurnalla əməkdaşlıq edən yazarlar “Müstəqil Yazarlar Konfederasıyası” adlı alt qurumda birləşirlər (məqsəd yaradıcılıq əlaqələrini möhkəmlətmək və bir-birinə dəstək olmaqdan ibarətdir. Heç bir maddi və ticari məqsədi yoxdur. Üzv yazarlar nə qurum, nə də bir-birləri qarşısında heç bir öhdəlik daşımırlar. Üzvülük haqqı nəzərdə tutulmayıb.)
- Gənc yazarlar “Yazarlar dərnəyi” adlı ikinci alt qurumun vasitəsi ilə mütamadi olaraq ustad yazarlardan faydalı məsləhət və tövsiyələr alırlar. Bundan əlavə dərnək əvvəlcədən müəyyən olunmuş layihələr çərçivəsində jurnalın xüsusi buraxılışlarını təşkil edir.
- Müəyyən layihələrin təşkili və gənc yazarların elan olunmuş müsabiqələrə təqdim edilmiş əsərlərinin nəşr olunmaq üçün seçilməsinin obyektivliyini təmin etmək məqsədi ilə tərkibi gizli saxlanılan 5 (beş) nəfər təcrübəli və filoloji təhsili olan yazardan ibarət “Yaradıcılıq Komissiyası” adlı üçüncü alt qrum yuxarıda qeyd olunduğu kimi ancaq yaradıcılıq məsələləri ilə məşğul olur.
- “Yazarlar” jurnalı bütün sadalanan və burada qeyd olunmamış gündəlik fəaliyyət zamanı ortaya çıxan məsələləri ictimai əsaslarla (ödənişsiz) həyata keçirir.



**Sərvanə DAĞTUMAS**

**Azər Qismətin “Ana söyüşü” hekayəsinin psixoloji qatları**

Hekayədə gənc nəsillə yaşlı nəslin psixologiyası qarşılaşdırılır. Metroda cavan oğlan ona toxunan müəllimin anasını söymüşdü. Halbuki, müəllim bunu bilmədən etmişdi, çünki metroda adam çox idi. Bu, onun qüruruna toxundu. O çalışırdı ki, buna görə oğlan ondan üzr istəsin, oğlansa ona kobudluq etməkdə, onu təhqir etməkdə davam edirdi. Bizim müəllimimiz isə öz mədəniyyətini, sakitliyini qoruyub saxlamağa davam edirdi. Müəllimin psixologiya müəllimi olması da təsadüfi deyildi. Bəs bir gənc niyə bu qədər kobud idi? Niyə tanımadığı insanın anasını söyməkdən çəkinməmişdi? Onu buna hansı yaşantıları vadar etmişdi?

– Ma, nə tez gəldin?

– Bu kişi kimdir?, – anası aldığı kartofun ağırlığını sol əlindən sağ əlinə saldı.

Oğlanın psixoloji dünyasına bu cümlə ilə daxil ola bilərik. O, anasının əlindəki kartofu götürməmişdi, yəni ona kömək etməmişdi. Ana qədri bilinmədiyi buradan sezilir. Belə olan halda öz anasına hörmət etməyən başqalarının anasına hörmət edər? Bəlkə də “ana söyüşü”nü ilk dəfə psixologiya müəllimінə qarşı işlətməmişdi.

– Yox-yox, siz gedin evə, mən də oğlunuzla insani münasibətlər barədəki yeni monoqrafiyamdan danışacağam.

Doğurdan da gəncə insani münasibətlər haqqında “dərs” keçmək lazım idi. Görəsən, indiki gənclərin çoxu niyə belə kobudlaşıb? Aqressivdir, o qədər basdırılmış duyğuları var ki, hər an “pusquda” durub silahları ilə atəş açmağa hazırdırlar.Gənclərmi tərbiyəsizləşib, yoxsa ailələrimi onları tərbiyəsizləşdirib? Bəlkə gənclərin ətrafında örnək ala biləcək yaşlı nəsil yoxdur? Əvvəllər yaşlılar deyərdi ki, indiki cavanlar…İndi isə cümlə metamorfoz olub: indiki qocalar…

Psixologiya müəllimimiz anasına o qədər dəyər verir ki, o, bu söyüşü öz qüruruna sığışdıra bilmir, gənci daima təqib edir, ondan sadəcə üzr istəməsini gözləyir, hətta döyülsə belə. Sadəcə üzr…

Nəhayət, bir neçə gəncdən “ana söyüşünün haqq-hesabını çəkməyin” yollarını öyrənən professor oğlanı gecə klubunda tapır və insanın ruhunu titrədən o sözü deyir: “Sənin anan-mənim anam”.

Oğlanı bu söz qəfildən ayıltdı. Əslində biz kiminsə anasına, atasına söyürüksə, elə o söyüş bizim yaxınlarımıza ünvanlanır. Qarğış bumeranq olduğu kimi söyüş də bumeranqdır,

ikibaşlıdır. Heç bir tərbiyə görməyən, gecə klublarında narkotik vasitələr istifadə edərək, həyatını əyləncə kimi görən gənc bu an nə etdiyini dərk edir, professor ona insanlıq dərsi verir.



“Köhnə kişilərdəndir. Qabağından yeməyi özünə sığışdırmır.” “Köhnə kişilər”. Bu söz birləşməsinə nələr daxildir? Təsəvvürümüzdə onları necə canlandırırıq?…İctimai nəqliyyatda kiçik müşahidə aparsaq, görərik ki, “köhnə kişilər” cəmiyyətdə azlıq təşkil edir.

Bu hekayə bizə gənc kimi necə davranmağı öyrədir, işlətdiyimiz ifadələrə diqqət yetirməyi, həyatımızın ən gözəl çağı olan gənclik illərini hədər verməməyi, ağsaqqal adına layiq yaşlılarla davranış qaydalarını xatırladır. Psixologiya müəllimi öz peşəsinə yaraşan tərzdə gəncə səbrli şəkildə “məsləhət verirsə”, gənc də atdığı hər addımında təmkinli olmağı bacarmalıdır. İnsanları bir hərəkətlərinə görə qəlibə

salmamalıdır, necə ki müəllim bilmədən ona toxundu deyə müəllimin anasını söydü.

Yazıçı niyə məhz ananı seçdi? Niyə məhz ana söyüşü? Ananı müqəddəsləşdirən nədir? Ananın insan həyatındakı rolunun sərhədləri varmı? Gənclə professorun analarına qarşı davranışları eynidirmi? Axı, hər ikisi anadır. Fikir versəniz, bizim ölkədə ana və bacı söyüşünün yükü ağırdır. Buna görə həbs olunanlar da var. Professor da həbsə düşə bilərdimi? Bilərdi, lakin etmədi. Onun bu davranışı, toleransı gənclərə örnək oldu. Heç kəsə görə həbsə düşməyə dəyməz və hər bir kəsə verilən cəza üslubu fərqlidir. Bir var, söyüş söyəni öldürüb, həbsə girəsən, bir də var ki, ağlınla, səbrinlə onu cəzalandırasan. Hər iki situasiyada cəzalandırırsan. Fiziki və ya psixoloji cəza. Fərq etməz. Elə cəza verməlisən ki, bu cəzanın yükü sənin çiyinlərinə düşməsin, sənin həyatını məhv etməsin, qarşı tərəf bundan utansın, bu halı bir daha təkrarlamasın, özünü, öz həyatını, mənəviyyatını, özünə yaraşdırdığın hərəkətləri düşünməlisən, axı onu o sözü işlətməyə vadar edən keçmiş yaşantıları, travması var. Axı, sən psixologiya müəllimisən…Axı, sən İNSANSAN!



**İsmayıl Şıxlının “Dəli Kür” əsərində qadın obrazları**
*(resenziya)*

İsmayıl Şıxlı 22-i mart 1919-cu ildə Qazaxın İkinci Şıxlı kəndində anadan olmuşdur. İsmayıl Şıxlının yaradıcılığı olduqca zəngindir. Onun “Konserv qutuları”, “Həkimin nağılı”, “Səhəri gözləyirdik”, “Kerç sularında”, “Haralısan, ay oğlan?”, “Raykom katibi”, “Daşkəsən” oçerkləri Azərbaycan ədəbiyyatı nəsrinin zənginləşməsində birbaşa rol oynamışdır. Ədibin “Ayrılan yollar”, “Dəli Kür”, “Ölən dünyam” romanları həm məzmun, həm də forma gözəlliyinə malikdir. İsmayıl Şıxlı Azərbaycan nəsrinin uğur qazanmasında əvəzsiz rola malikdir. İsmayıl Şıxlı 26 iyul 1995-ci ildə Bakıda vəfat etmişdir. Ədib Fəxri xiyabanda dəfn olunmuşdur. İsmayıl Şıxlının “Dəli Kür” romanı Azərbaycan ədəbiyyatında roman janrının ən uğurlu

nümunəsidir. Əsər 1957-1967-ci illər aralığında yazılmışdır. Ədib romanın üzərində illərlə çalışmışdır. İsmayıl Şıxlı “Dəli Kür” romanında XIX əsrdə baş verən mürəkkəb tarixi proseslərədə geniş şəkildə toxunmuşdur. Ədib əsərində Azərbaycan xalqının həyatında baş verən əsaslı dəyişikliklərdən geniş şəkildə bəhs edir. İsmayıl Şıxlının “Dəli Kür” romanı Kürün sahilində yerləşən Göytəpə kəndinin təsviri ilə başlayır. Ədib əsərində çox güclü peyzaj nümunələri yaratmışdır. İsmayıl Şıxlının “Dəli Kür” romanında insan psixologiyası ən dərin qatlarına kimi yazıçı tərəfindən təsvir olunmuşdur. Əsərdə təsvir olunan qadın obrazları hər biri öz-özlüyündə böyük bir yükü daşıyır. Yazıçı bu qadınların iç dünyasını əsərdə çox dolğun bir şəkildə əhatəli təsvir etmişdir. İsmayıl Şıxlı  “Dəli Kür” əsərində Zərnigar xanım, Şahnigar, Mələk, Salatın, Güləsər kimi qadın obrazları yaratmışdır. Bu qadın obrazların hər biri öz xarakterinə görə bir-birindən fərqlənir. Bu qadın obrazlarının hər biri əsərdə öz talehini yaşayır. Ədib hər birinin xarakterik xüsusiyyətlərini dolğun şəkildə əks etdirmişdir. İsmayıl Şıxlının  “Dəli Kür” əsərindəki qadın obrazlarının hər biri Cahandar ağanın ailə üzvüdür. Zərnigar xanım həyat yoldaşı, Şahnigar bacısı, Mələk götürüb qaçırtdığı qadın, Salatın qızı, Güləsər gəlinidir. Əsərdəki bütün qadın obrazlarının hər biri Cahandar ağaya bağlıdır. Cahandar ağanın birinci həyat yoldaşı olan Zərnigar xanım əsilli bir nəslə mənsub ailədən idi. Zərnigar xanım Cahandar ağanın onun üzərinə günü gətirilməsini heç cür qəbul edə bilmirdi. O, qadınlıq qürurunu tapdaladığı üçün Cahandar ağanı heç cür bağışlaya bilmirdi.  Zərnigar xanıma Cahandar ağanın bu hərəkəti o qədər pis təsir etmişdi ki, o hətta oğlu Şamxalın adam öldürməsinə belə razı idi. Gözlərinə artıq heç nə görsənmirdi. Zərnigar xanım oğlu Şamxaldan Mələyi xəncərlə vurub öldürməsini tələb edir. İsmayıl Şıxlı “Dəli Kür” romanında bu səhnəni elə dolğun bir şəkildə təsvir edir ki, oxucunun gözü qarşısında bu qüruru ayaqlar altına atılmış qadının bütün

hisləri canlanır. Zərnigar xanıma ən çox təsir edən o idi ki, Cahandar ağanın onun üzərinə günü kimi gətirdiyi qadın başqasının arvadı idi. Cahandar ağa Zərnigar xanımın üzərinə günü gətirməklə ona özünün gözəlliyini, gəncliyini, təravətliliyini itirdiyini bildirir. Zərnigar xanıma ən çox təsir edənlərdən biri də o idi ki, Cahandar ağa başqasının arvadı olan Mələyi onun xanımlıq etdiyi evə gətirmişdi, həm də o evə ki, orada onun evlənməli yaşda olan qızı və oğlu yaşayırdı. Bu məsələdə Zərnigar xanım çox aciz idi. Onun düşdüyü vəziyyət olduqca ağır idi. Gəlin gətirmək istədiyi evə əri günü gətirmişdi və bu günü başqasının arvadı idi. Başqasının arvadını qaçırtmaq düşmən qazanmaq demək idi. Ona görə də, Zərnigar xanım oğlu və qızı üçün çox qorxurdu. Zərnigar xanım bu məsələdə tamamilə günahsız idi. İsmayıl Şıxlının "Dəli Kür" əsərinin qadın obrazlarından biri də Mələk idi. Əsərdə Mələkdə talehsiz qadın kimi təsvir olunur. Mələyin əri olan Allahyar ona sözün əsl mənasında gün verib işıq vermirdi. Evində yaxşı gün görməyən Mələk Cahandar ağanın onu götürüb qaçmasından olduqca məmnun idi. O, ümid edirdi ki, qaçırıldığı evdə xoş bir gün görəcək. İsmayıl Şıxlının "Dəli Kür" əsərinin digər bir qadın obrazı Cahandar ağanın bacısı olan Şahnigar xanımdır. Şahnigar xanımın çox ağrılı-acılı həyatı olub. O, həyat yoldaşını itirəndən sonra qardaşı Cahandar ağanın evində yaşamağa başlayır. Şahnigar xanım xasiyyətcə şən, deyib-gülməyi sevən bir qadındır. O, qardaşı Cahandar ağanın evində yaşadığı müddətdə onun qanunları ilə yaşayır. Lakin Cahandar ağanın düşməni olan Molla Sadığın oyununun qurbanı olur. Belə ki, Cahandar ağadan qisas almaq istəyən Molla Sadıq onun bacısı Şahnigar xanımı aldadıb, mürid məclisinə aparır. Cahandar ağanıda ora çağırıb, Şahnigar xanımın ölümünə səbəb olur. Bacısı Şahnigarı bağışlamayan Cahandar ağa onu Kürdə boğub, öldürür. İsmayıl Şıxlı "Dəli Kür" əsərində Şahnigar xanımın öldürülməzdən əvvəl gözü önündən keçən görüntülərin

təsvirində çox güclü psixologizm yarada bilmişdir. Bacısından namus tələb edən Cahandar ağa özü bütün tabuları, qandan gələn ata-baba qaydalarını, namus məsələsini ayaqlayıb, başqasının arvadını götürüb, qaçırtmışdı. Cahandar ağa özü çox yaxşı bilirdi ki, bacısı Şahnigar xanımı ondan qisas almaq üçün tora salıblar, lakin o yenə də bacısını öz eqoizminin qurbanı edir. İsmayıl Şıxlının “Dəli Kür” əsərinin digər bir qadın obrazı Cahandar ağanın qızı Salatındır. Salatın xasiyyətcə şıltaq, saf, mehriban, təmiz qəlbli gözəl bir qızdır. Salatın əsərdə evlənmək yaşındadır. Onun bu yaşında ailəsində yaranan gərginlik ona çox pis təsir edir. Zavallı qız anası ilə atası arasında yaranan bu uçuruma görə çox böyük stress keçirir. Salatının gəlin köçmək yaşında başına gələn bu müsibət ona çox ağır gəlir. Anasının bütün günü dərd, qəm çəkməyi, qardaşının evdən baş götürüb getməsi, atasının başqasının arvadını qaçırdıb, özünə düşmən qazanması zavallı qızı məhv edirdi. Salatının həyatı Zərnigar xanıma təsəlli verməklə keçir. Zavallı qız özündən çox atasının başqasının arvadını qaçırdığı üçün bunun qisasını qardaşı Şamxaldan alacaqlarından qorxub, qayğı və düşüncə içində məhv olurdu. Zavallı Salatın atasının başqasının arvadını qaçırtmasının qurbanı olur. Onu atasının qaçırtdığı qadının əri olan Allahyar qaçırdıb, zavallı qızın namusunu ləkələyib, atası Cahandar ağadan qisas almaq istəyir. Beləliklə, Salatın Cahandar ağanın səhvinin qurbanı olur. Salatını qaçırmağa nail olsa da, Allahyar iyrənc planını həyata keçirə bilmir. Allahyarın Salatını qaçırdığı ev Cahandar ağanın dostunun evi olur, məsələdən agah olan ev sahibi qızı qoruyub, atasına təhvil verir. Bacısı Şahnigar xanımı Kürdə boğub, öldürən Cahandar ağaya atalıq duyğusu qalib gəlir və o qızı Salatını öldürə bilmir. Cahandar ağa qızı Salatının rüsvay olmasında, bacısı Şahnigar xanımın ölümündə birbaşa günahkar idi. İsmayıl Şıxlının “Dəli Kür” əsərindəki qadın obrazlarının digər biri isə Cahandar ağanın böyük oğlu Şamxalın həyat yoldaşı

Güləsərdir. Güləsər kasıb bir ailənin qızıdır. Onu Cahandar ağa kasıb bir ailənin qızı olduğu üçün böyük oğlu Şamxala layiq bilmirdi. Güləsər çox təmiz, saf qəlbə sahib gənc bir qız idi. Cahandar ağa kasıb bir ailənin qızı olan Güləsəri özünün zəngin mülkədar ailəsinə layiq görmürdü. Güləsər əsərdə dözümlü, iradəli, ailəsinə bağlı bir qadın kimi təsvir olunub. İsmayıl Şıxlının bir yazıçı kimi böyük şöhrət qazanmasında “Dəli Kür” əsərinin çox böyük rolu vardır. Ədibin əsərdə yaratdığı qadın obrazların müsbətidə, mənfisidə olduqca canlı qələmə alınmışdır. İsmayıl Şıxlının “Dəli Kür” əsəri Azərbaycan ədəbiyyatı üçün olduqca böyük əhəmiyyətə malikdir.

**MÜƏLLİF: ATAKİŞİYEVA HƏCƏR**



## Zaur USTAC

**İLHAM QAZAXLI ÜMUMBƏŞƏRİ ŞAİRDİR**

Salam olsun, çox dəyərli oxucum. Uca Yaradana dünyadakı kəlmələrin sayı qədər şükürlər olsun ki, yenidən sizlərlə görüşmək nəsibimiz oldu.

*Qəzənfər, sözündən təzə söz doğur,*
*Şərdən yalan doğur, haqdan düz doğur.*
*Hər yerdə analar oğlan, qız doğur,*
*Qazaxda analar şair doğurlar!*

Qəzənfər Məsimoğlundan gətirdiyim bu gözəl misralarla söhbətimizə giriş vermək istəyirəm. Bəli, Əliağa Şıxlinskini, Səməd Vurğunu dünyaya bəxş edən şıxlılar, şahsevənlər, ustaclılar, aşıqlılar yurdu Qazax elində müasirimiz olan İlham Qazaxlı kimi daha bir mükəmməl şəxsiyyət, ümumbəşəri şair, “haqq aşığı” doğulub, boya-başa çatmışdır. Azərbaycanın ali təhsil ocaqlarından birində dəqiq elmlər üzrə təhsil alsa da insanlığa sözlə xidmət etməyi qarşısına məqsəd qoymuş və hal-hazırda bu vəzifənin öhdəsindən layiqincə gəlməkdədir.

Bu məsələyə bir neçə yazımda və yeri gəldikcə müxtəlif tədbirlədə baş tutan söhbətlərimdə toxunmuşam. Burada da Vahid Əzizin adını çəkməklə bir daha xatırlatmaq istəyirəm ki, dəqiq elmlər sahəsində təhsil almış şəxslərin ədəbi fəaliyyəti həmişə orijinallığı ilə seçilir. İlham Qazaxlı da belə xüsusi istedad sahiblərindən biridir.



Qələmlə və ya qələmsiz yazmasından asılı olmayaraq istənilən məsələyə ədalətli və obyektiv mövqeyi ilə seçilən dəyərli söz adamı Rəşad Məcidin şairin 50 illik yubileyi ilə bağlı Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" adlı zalında keçirilən tədbir zamanı dediyi: - "İlham Qazaxlı şəxsiyyəti və yaradıcılığı bir-birini tamamlayan şairdir…" – fikri üzərindən söhbətimi davam etdirərək bildirmək istəyirəm ki, doğulduğu aydan tutmuş, böyüyüb boya-başa çatdığı elə qədər həyatındakı bütün mövcud amillər məhz bu cür bitkin, kamil şəxsiyyət, cəmiyyət üçün faydalı insan yetişdirməli idi. Böyük əminliklə vurğulamaq istəyirəm ki, İlham Qazaxlının başqa yolu olmayıb. İlham Qazaxlı, ya da İlham Qazaxlı! O istənilən bir sahədə məşğul olsaydı eyni uğuru yenə təkrarlayacaqdı. Şair haqqında belə ümumi sözlərlə qısa məlumat verdikdən sonra onun real həyat və fəaliyyəti haqqında kiçik bir arayış təqdim etməyə ehtiyac duydum. QISA ARAYIŞ: İlham Qazaxlı 13 may 1973-cü ildə Qazax rayonun Dağ Kəsəmən kəndində anadan olub. İlk təhsilini doğma kəndində aldıqdan sonra 1995-ci ildə Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və İnformatika fakültəsini bitirib. Şeirləri müxtəlif mətbu

orqanlarda müntəzəm olaraq dərc olunur. AYB və AJB üzvü olan şairin ədəbi yaradıcılıq fəaliyyəti “Qızıl Qələm” və “Ziyadar” kimi nüfuzlu mükafatlarla qiymətləndirilib. Əlinə qələm aldığı ilk günlərdən etibarən bu günədək fasiləsiz və stabil fəaliyyət göstərən İlham Qazaxlı 50 illik yubileyi ərəfəsində “Zəfər sevinci” adlı növbəti kitabı ilə oxucularını sevindirib.

Söhbətimizin bu yerində Qəzənfər Məsimoğlunun – “Hər yerdə analar oğlan, qız doğur, Qazaxda analar şair doğurlar!” – misralarını təkrarən misal gətirərək qeyd etmək istəyirəm ki, Qazax kimi sazın, sözün xüsusi çəkisi, qədir-qiyməti olan eldə mən şairəm demək, hələ üstəlik “Qazaxlı” təxəllüsü götürmək özü bir şücaət, böyük məsuliyyət deməkdir. Mənim üçün ümumbəşəri şair olan İlham Qazaxlı bəlkə də yaradıcılığının ilk illərində “Qazax” adına söykənərək, – “dünyaya mən də varam, mən şairlər yurdu Qazaxdanam” – demək istəyirdisə, artıq çoxdan öz sözü ilə doğma Qazağını dünyaya tanıdır.

Şeirlərinin birində (İlham Qazaxlı. “Zəfər sevinci”. Bakı, “Elm və təhsil”, 2023, 304. s.191.) :

*Dayansın hücumu şərin bəşərə,*
*Kökündən yamanlıq, pislik laxlasın!*
*Çəkməsin insanı iblis məhşərə,*
*Zalımın zülmündən Allah saxlasın!*

– deyən şair sözün əsl mənasında böyük amallar uğrunda çarpışdığını bir daha gözlər önünə sərir. Düz 50 il əvvəl Qazağın bəlkə də insanlar üçün ucqar, Ulu Tanrıya isə bir basamak daha yaxın olan Dağ Kəsəmən kəndində pərvəriş tapmış bir fidanın bu gün filizlənərək “min budaq” olması, dünyaya sözünü çatdırması, bir elin hüdudlarını aşaraq, cahana ününü yetirməsi, ümumbəşəri ideyalar carçısına çevrilməsi təqdirəlayiq haldır.

Yaxud başqa bir şeirdə (İlham Qazaxlı. “Zəfər sevinci”. Bakı, “Elm və təhsil”, 2023, 304. s.107.) :

*Suriya! Ey, köksü yanan məmləkət!*
*Çəkilmir üstündən bir an fəlakət.*
*Hər doğan sabahın qaranlıq saçır,*
*Müqəddəs amallar səndən gen qaçır. …*

Bu misralar qeyri-ixtiyari böyük Səməd Vurğunun “Zəncinin arzuları” əsərini yadıma saldı. Özü param-parça olmuş bir məmləkətin sakini

olan , bütün gəncliyini Qarbağ kimi dərd-bəla ilə mücadiləyə həsr etmiş şairin ümumbəşəri mövqeyi məhz belə olmalıdır.
Bu qəbildən olan misalları sadalamaqla yazını daha da uzatmaq olardı. Ancaq "arifə bir işarə bəs eylər" misalına istinad edərək, sizi yormaq istəmirəm. Sonda onu qeyd etmək istəyirəm ki, mənsub olduğu ədəbi nəslin nümayəndələri arasında İlham Qazaxlı bütün məziyyətləri ilə seçilən qələm adamıdır. O sözün əsl mənasında bütün xırdalıqları fövqündə dayanan haqq aşığı (sazı olmasa da), ümumbəşəri şairdir. Bütün uğurlarından dolayı onu təbrik edir, yeni-yeni yaradıcılıq nailiyyətləri arzulayıram. Uğurlarınız bol olsun, İlham Qazaxlı! Yolunuz açıq olsun…



Sona qədər həmsöhbət olduğunuz üçün təşəkkürümü bildirir, Uca Yaradandan hamınıza uzun ömür, cansağlığı, ailə səadəti arzu edirəm. Yeni-yeni görüşlərədək. Var olasınız. Uğurlarınız bol olsun.
*03.06.2023. Bakı.*



*Məmməd MƏRZİLİ*

**QISA HEKAYƏLƏR**

**DUZ YÜKÜ**

Keçmişdə çox mal-qarası, qoyun sürüsü olan adamlara, “gəllədar” deyirdilər.Yaz gələndə bu gəllədarlar öz sürülərini yaylaqlara aparardılar.Hər kəsin də öz yaylaq yeri vardı.
Qurban kişi də kəndin varlı insanlarından biri idi.Onun yaylaq yeri Kirs dağındaydı.O, bu il də sürüsünü, naxırını Kirsdə saxlayırdı.Yaylaqda saxlanan heyvanlara 10-15 gündən bir duz verilir. O zaman duz dəvə ilə, atla, ulaqla,öküzlə daşınırdı.Qurban kişi hər dəfə bir at yükü duz gətirəndə iki dəfə əzib verməyə bəs edirdi.
Duz ehtiyatı qurtardığından Qurban kişi atını minib Qalaya (o zaman Şuşaya el arasında “Qa-la” deyirdilər) gedir.Mağazada duz az olduğuna görə apardığı qavqacağın (xurcundan xeyli bö-yük yük daşımaq üçün toxunmuş əşya) bir gözü dolur, biri boş qalır.Kişi yükü tarazlamaqdan ötəri boş qalan tərəfə daş yığır.Həmişəki kimi yükün ağır olduğunu nəzərə alaraq, adəti üzrə atı yedəyində aparır.Yolda ona bir oğlan rast gəlir.Onlar salamlaşandan sonra (kənd adamları tanıdı-tanımadı salamlaşmamış keçmirlər) oğlan soruşur:
-Dayı apardığın nədi?

-Duzdu, ay bala.-Kişi dilxor halda dillənir.
Oğlan baxır ki, kişi qəmgindi.Ona görə deyir:
-Dayı, deyəsən yorulmusan?
-Ay bala, həm yorulmuşam, həm də dilxoram.
-Niyə? –Oğlan özündən asılı olmayaraq maraqlandı.
-Oğul, həmişə gedib bu qavqacağı doldurub gətirərdim.İndi duz az olduğuna görə qavqacağın bir gözü doldu, o biri gözü boş qalmasın deyə daş yığdım.
-Onda gətir daşı boşaldaq, duzu iki yerə bölək.Atın yükü yüngülləşsin, sən də min ki, yorulma.
-Ay bala, yəni belə olar? –Kişi təəccübləndi.
Oğlan tez atın yükün açır.Daşı boşaldır.Duzu iki yerə bölüb ata yükləyir.Kişiyə deyir:
-Dayı, gəl atı min, rahat sür getsin, yorulma.
Qurban kişi atına minib xeyli gedəndən sonra fikirləşdi ki, belə ağıl sahibi olan oğlanın adın soruşmadım.Onunla əməlli tanış olmadım.Tez atın başını döndərib geri qayıtdı.Oğlanı çağırıb saxladı:
-Ay bala, heç səndən soruşmadım adın nədi, kimlərdənsən, varından, dövlətindən nəyin var?
-Dayı, var-dövlətim nə gəzir? Kasıb adamam, başımı güclə dolandırıram.
-Bu ağılın sahibisən, bəs niyə belə kasıbsan?
-Ay dayı, var-dövləti də verən Allahdı, ağılı da.İndi sənə Allah var-dövlət verib, mənə də ağıl.
-Elə bildim sənin kimi ağıl sahibi olan adamın yaxşı sərvəti var.Səninlə dost olmaq istəyirdim. Bir halda ki, sənin heç bir dövlətin yoxdu, heç ağlın da mənə gərək deyil.
Qurban kişi atdan düşüb oğlana dedi:
-Oğul, gəl yükü aç! Yerə tökdüyün daşları qaytar yerinə.
Oğlan nə qədər çalışdı ki, kişi atını minib getsin, mümkün olmadı.Əlacsız qalıb yükü açıb daş-ları yerinə qoydu.Sonra yükü bərkidib atı kişiyə verdi.Qurban kişi atını yedəyinə alıb

çəkə-çəkə yoluna davam etdi.Oğlan sərvəti ağıldan üstün tutan kişinin arxasınca baxa-baxa qaldı.

**QARA PIŞIK**

Bu gün qarşımdan qara pişik keçdi.Qədim inanclara görə, qarşıdan qara pişik keçməsi pis əla-mətlərdən sayılır.Həmin gün uğursuz hesab olunur.Odur ki, mən bu günü sönamaq qərarına gəl- dim.

Qızmar yay günü idi.Bir tərəfdən yayın, bir tərəfdən də atılan mərmilərin, güllələrin ətrafa ya-yılan istisi.Bu istilər cəbhə bölgələrində yaşayan əhalini sıxdıqca-sıxırdı.Hər yay yaylaqlara qal- xan tərəkəmənin də yolu bağlanmışdı.İndi onlar da bu istilərdə bişirdilər.

Hərbi maşınların, hərbi texnikanın buraxdığı zəhərli qazlar, qaldırdıqları toz dumanı burada yaşayan insanlara ağır zərbə vursa da, heç kim bunun fərqinə varmırdı.Həmişə güi-çiçək ətrinə bürünən havadan, indi barıt iyi gəlirdi.5 ildi ağır müharibə şəraitində yaşayan insanlar buna adət ediblər.Başlarına yağış kimi mərmilər, güllələr yağan əhali bu həyat tərzində yaşamağa bir daha alışmışdı.

* * *

Biz Mərzili kəndini müvəqqəti tərk edib (orada hərbi əməliyyat getdiyinə görə), Çəmənli kən- dində məskunlaşmışdıq.Çəmənli kəndi o zaman cəbhədən 15-20 km aralı olsa da,atılan mərmilə- rin səsi, avtomatların, pulemyotların şaqqıltısı açıq eşidilirdi.

Mən hər səhər Çəmənlidən işə gedirdim.Bu səhər də, adətim üzrə, Ağdam rayonunun X.Natə-van adına sovxozunun qarajındakı iş yerimə tələsirdim.Evdən çıxanda qarşımdan qara pişik keç- di.Buna baxmayaraq, yoluma davam elədim (qədim inanclara görə,qarşıdan qara pişik keçəndə gərək geri qayıdasan).

Ağdam şəhərinə Uşaq Xəstəxanası tərəfdən daxil olanda əsgərlər maşınımı saxlatdılar.Məni saxlayanlar cəbhədən

geriyə çəkilən əsgərlər idi.Ermənilərlə üz-üzə döyüşüb şəhəri müdafiə edən əsgərlərə kömək etmək əvəzinə, onlar geri çəkilirdilər.Onların haradan cəbhəyə gəldikləri ilə maraqlandım. Mənə məlum oldu ki, onları haradansa cəbhəyə məcbur tutub gətiriblər.Yenə sağ olsunlar, xəbərdarlıq etdilər ki, ermənilər şəhərə Əhmədavar tərəfdən daxil olublar.Buna baxmayaraq, Uşaq Xəstəxanasının yanındakı kanalüstü yolla iş yerimə getdim.Məndən bir az sonra sürücü Nuru kişi yanacaq daşıyan maşınla oraya gəldi.

* * *

Şiddətli döyüş gedirdi.Topların, tankların, BMP-lərin.. mərmiləri yeri lərzəyə gətirirdi.Pulem-yotların, avtomatların şaqqıltısı dayanmaq bilmirdi.Bu döyüş başqa günlərdəki döyüşlərdən fərq-li idi.Dinc əhali maşınlarla, piyada qaçhaqaçdaydılar.Onlar canlarını xilas etməyə çalışırdılar.Çı-ğırtıdan, bağırtıdan qulaq tutulurdu.Hamı çaşqınlıq içindəydi.Heç kim Ağdam kimi şəhərə ermə- nilərin daxil olmasına inana bilmirdi.Axı Ağdamın adın eşidəndə ermənilər tir-tir əsirdilər.

Ağdam şəhəri hələ belə narahat gün yaşamamışdı.Həmin gün indi də yadımdan çıxmır.Hər ya-dıma düşəndə də əsəblərim gərginləşir.

Bizim yanımızdan Dəyirman Kombinatı açıq görünürdü.Yanacaq götürmək istəyəndə düşmən tankları Dəyirman Kombinatı tərəfdən çıxdılar.Yanacaq götürəsi olmadıq.

-Nuru dayı, maşını sür gedək, -dedim.

Nuru kişi maşını sürüb ordan uzaqlaşdı.Mənim idarə etdiyim “Moskviç-412” işə düşmədi.Dar ayaqda tərsliyi tutmuşdu.Tanklar pulemyotlardan atəş aça-aça yaxınlaşırdılar.Güllələr ətrafıma yağış kimi yağırdı.Aşkar Allah məni qoruyurdu.Mən axırıncı dəfə Seyid Lazım ağanın cəddini çağırıb maşını işə salmaq üçün açarı açdım.Bu dəfə də mühərrik işə düşməsə, maşını orada qo- yub piyada qaçmaq fikrindəydim.Axır ki, mühərrik işə düşdü (Allah məni darda

qoymadı).Maşın işə düşən kimi sürüb oradan uzaqlaşdım. Dəmir yolun keçib Sarcalı kəndinə tərəf üz tutdum.Sarcalı kəndinin qədim bağına çatanda gör- düm ki, Nuru kişi məni orada gözləyir.O, məni görüb çox sevindi.Dedi ki, “sənin sağ-salamat gəlməyinə Seyid Lazım ağaya nəzir demişəm.Sənə bir qəza üz versəydi, uşaqlarına nə cavab ve-rəcydim?”
Mən həmin gün atəş altından salamat çıxsam da, nə qədər əsgərlərimizdən, dic əhalidən şəhid oldular, yaralandılar, əsir düşdülər.Ağdam kimi şəhərimiz dağıldı, işğal oldu.Nə qədər kəndimiz od tutub yandı, işğalçıların tapdaqları altında qaldılar…
Allah sənə lənət eləsin, qara pişik! Sən mənim qarşımdan keçəndən didərgin düşmüşük, doğ-ma yurd yerimizə həsrət qalmışıq.Ermənilər və ermənipərəstlər torpaqlarımıza, insanlarımıza qə-nim kəsildilər.Başqa vaxtı ağdamlıların qorxusundan siçan deşiyinə girməyə hazır olan ermənilər “böyük xaç qardaşlarının” hesabına bizə meydan oxuyurlar.Arxalarında duran imperiya cəlladla-rı onları üstümüzə qısqırırlar.
* * *
Ay qara pişik, həmin vaxtı mən də tərslik elədim.Mənim də günahım var.Sən mənim qarşım- dan keçəndə geri qayıtsaydım, bəlkə də başımıza bu bəlalar gəlməzdi.Allah mənim tamahımı kəssin.İndi “Əli aşından da olmuşam, Vəli aşından da…”
Bu vəzifə, var-dövlət hərisliyi ( yəni tamahımız) torpaqlarımızın həmişə güdaza güdaza get-məyinə səbəb oldu.Hər il 23 iyul gələndə lənətləmə qara pişik gəlib durur gözlərimin qarşısında. Ay qara pişiklər, Allah sizə lənət eləsin, bəduğudsunuz! Elə bu ermənilər də sizə oxşayırlar.İn-di özümə söz vermişəm, qədim inanclara inamsız olmayacağam.Bir də qarşımdan qara pişik keç-sə, geri qayıdacağam.Daha gec olsa da…

**AĞ DƏMİR**

Çoxdan DAM (Dövlət Avtomobil Müfəttişliyi) –də işləməyinə baxmayaraq Alının rütbəsi hə-lə də leytenant idi.Ha çalışsa da, əlinə bir "yağlı tikə" düşmədi ki, verə rəisə həm rütbəsi qalxa, həm də vəzifəsi.

O, bu səhər də "ya Allah" deyib evdən çıxdı.Bu gün də gedib iş cədvəlinə qol çəkdi.Rəisdən tapşırığını alıb, xidməti maşınını minərək ona təyin olan sahəyə yollandı.Onun cavabde olduğu sahə rayon mərkəzindən 15 km aralı idı.

Alı çox da qəddar deyildi.Sürücülər onunla tez razılığa gəlirdilər.Bəzən cəriməni çöldən-çölə ödəyirdilər.Bəzən də yüngül cərimə yazdırıb ona əlavə "hörmət" edirdilər.Bu da hər iki tərəfin xeyrinə olurdu.Bir sözlə, sürücülər onu, o, da sürücüləri başa düşürdü.Ona görə də "gündəliyi" pis olmurdu. Bu ərazidəki sürücülər Alını yaxşı tanıyırdılar.Oğurluq malları olan kimi "koxanı gör, kəndi bas" məsəlindən istifadə edib "işlərini" görürdülər.Elə sürücülər vardı ki, vəzifəsinə görə onula qohum da olmuşdular.

Artıq axşamçağı idi.Alı xidməti maşınını minib getmək istəyirdi.Bu zaman Bakı tərəfdən ağır-ağır gələn bir "Zil" markalı maşın onun diqqətini cəlb etdi.O, dayanıb maşını gözlədi.Maşın ona çatanda Alı əlindəki "ala" cubuğu ilə sürücüyə dayanmaq işarəsi verdi.Sürücü onu 5-6 m keçən-dən sonra saxladı.

Sürücü kabinədən enib ona tərəf gəldi.O, bu sürücünü və maşını birinci dəfə idi görürdü.Sürü-cü ona çatıb ədıb-ərkanla salam verdi:

-Axşamın xeyir, "nəçənnik" (rəis)! –O zaman bütün sürücülər DAM –in hər bir işçisinə vəzi-fəsindən, rütbəsindən asılı olmayaraq "rəis" deyirdilər.

-Aqibətin xeyir! Maşında apardığın nədi? Zəhmət olmasa özünün və apardığın yükün sənəd-lərini ver! –Alı da onunla rəsmi danışdı.

-"Rəis", sənədləri neynirsən? Al bunu, icazə ver gedim. –

Sürücü ona 25-lik əskinas uzadır.
-Maşındakı nədi? –Alı sürücüdən bir də soruşur.
-“Rəis”, maşında bir az dəmir var.Al bu pulu, məni burax gedim. –Sürücü əlindəki pulun üs-tünə birin də əlavə edib 50 manatı ona tərəf tutur.
-Hələ bir maşına baxım görüm nə var, nə yox.
Alı aramla maşına yaxınlaşdı.Maşının bortu hündür olduğundan o, çətinliklə də olsa, qalxıb maşına baxdı.Sanki gözlərinə işıq gəldi.Alının əlinə “yağlı tikə” düşmüşdü.O, özündən dazı hal-da maşınsan endi.Üzünü sürücüyə tutub əda ilə dedi:
-Ə, sən nə danışırsan? Maşının içi dolu ağ dəmirdi (paslanmasın deyə üzünə sink qatı çəkilən list dəmirə el arasıda “ağ dəmir” və ya “sinkovı” dəmir deyirdilər),heç sənədi də yoxdu, sən də mənə 50 manat verirsən? Bu həm də “kandiravat” (satışı qadağan olunmuş demək istəyirdi) maldı.Maşını mütləq şöbəyə aparmalıyam.
-“Rəis”, 300 manat verirəm, ora aparma. –Sürücü 300 manatı cibindən çıxarıb ona təklif etdi.
-Yoox, mən səni belə buraxa bilmərəm.Maşın yüklə birlikdə şöbəyə getməlidi.
Oğlan məbləği qaldırdıqca, Alı “maşın şöbəyə getməlidi” deyib durmuşdu.Sürücü hesabı on min manata çatdırsa da, o, razılaşmadı.Onun tərsliyi tutmuşdu.
-Otur maşına, sür arxamca!
Oğlan əlacsız qalıb maşına oturdu və onun arxasınca sürdü.Alı maşını yaxınlıqdakı maşın-traktor parkına apardı.O, arabir belə edirdi.Nədənsə maşını birbaşa şöbəyə aparmağa tələsmədi. Onun daxilində bir lovğalıq baş qaldırmışdı.Sanki dünyaya məlum olmayan hansısa bir elmi ix-tira etmişdi.
-Maşını içəri sal, özün də səhər saat 9-da gələrsən.
Sürücü maşını gözətçi butkasından xeyli aralı, hasarın lap yaxınlığına verib saxladı.Hasarın o biri, çöl tərəfindən yol keçirdi.Qarajın içi qaranlıq idi.Bircə gözətçi duran yerdə zəif

işıq yanırdı. Oğlan qarajdan çıxandan sonra Alı darvazanın qıfılına blom vurdu və gözətçiyə tapşırıq verdi:
-Səhər açılmamış lap müdirin də gəlsə, mənim adımı ver darvazanı açmasın.Əgər darvazanı açıb bu maşını buraxsan, cinayətə cəlb olunacaqsan.İşdi, əgər təcili nəysə baş versə, mənə bu nömrəyə zəng edərsən.-O, evinin telefon nömrəsini bir kağıza yazıb gözətçiyə verdi.
-“Baş üstə”! –Gözətçi bir qıfıl da gətirib əl qapısına vurdu.
Alı sürücüdən hara gedəcəyini soruşmadan maşınına minib getdi.Sürücü oradan gəlib şəhərə gedən yola çıxdı.Boş gələn bir taksini saxlatdırıb onunla şəhərə gəldi.Şəhərdə bu taksidən düşüb başqa bir taksiyə, -məni ağır yük qaldıran avtokranı olan bir qaraja apar! –dedi.Taksi sürücüsü onu bir qaraja apardı.O, düşüb gözətçidən avtokranin sahibinin ünvanını aldı.Həm də gözətçi ilə razılığa gəldi.Həmin taksi ilə gedib avtokran sürücüsünü gətirdi.50 manat verib taksi sürücüsünü yola saldı. Oğlan avtokran sürücüsü ilə razılığa gələndən sonra gözətçiyə dedi:
-Bu maşının qarajdan çıxmağın heç kim bilməməlidi!
* * *
Gecə yarıdan keçmişdi. Hər tərəfdə sakitlik hökm sürürdü.Bir qurbağaların quruldaması, bir də həzin əsən küləyin yırğaladığı ağacların yarpaqlarının xışıltısı eşidilirdi.Mürgülədiyini görən gö-zətçi yuxusunu dağıtmaq üçün gedib bura salınmış yük maşınına baxıb gəldi. O, heç bir təhlükə-nin olmadığına arxayınlaşdı.Ancaq az keçmiş necə yuxuya getməyindən xəbəri olmadı.
Sürücü kranı hasarın yanında saxlayan kimi işıqlarını söndürdü.Oğlan cəld kabinədən çıxaraq kranın üstündən öz maşınının yük yerinə tullandı.Kran sürücüsü tez kranın qaldırıcısını işə salıb hasarın o biri tətəfinə keçirdi.Oğlan qarmaqları maşının dörd yerinə bərkitdi.Onlar maşını qaldı-rıb qoydular hasarın çöl tərəfinə.Oğlan qarmaqları maşından çıxaran kimi kran sürücüsü trosu yığdı.Hər iki maşın gecənin

qaranlığında yoxa çıxdılar.
Onlar qorxulu-qorxulu elə işlədilər ki, arxayınçılıq zamanı heç belə alınmazdı.Oğlan kranı gö-
zətçiyə söz verdiyi vaxtdan tez gətirib qaraja qoydu.O, gözətçinin pulunu verib, kran sürücüsünü evinə apardı.Oğlan sürücünü evində düşürəndın sonra gedib yükünü apardığı yerə boşaldaraq sə-hər açılmamış şəhərdən çıxdı.
Alı xidməti maşınını öz qarajlarında qoyub arxayın evinə getdi.O, özünə gör nə qədər arxayın olmuşdu ki, nə maşının nömrəsini götürmüşdü, nə də sürücüdən maşının açarını almışdı.Evdən rəisə zəng vurdu:
-Rəis, əlimə bir “yağlı tikə” düşüb. Zil maşın dolu ağ dəmir tutmuşam.
-Bəs neylədin? –Rəis tez soruşdu.
-Aparıb salmışam kolxozun qarajına, darvazanı da blomlamışam.Səhər tapşırıq verərsiniz ge-dib bir nəfərlə gətirərik.
Rəis,-lap yaxşı,-deyəndən sonra Alı dəstəyi yerinə qoydu.O, öz-özünə fikirləşdi ki, bir maşın ağ dəmir tutmaq zarafat iş deyil.Hələ bunu kim verib, hardan çıxıb, nə bilim nə,nə… axırda da sürücünün özü.Əgər sürücünün özü on min manat verirsə, deməli burda hesab lap böyükdü.Həm vəzifəm artar, həm də rütbəm…
Bu xəyallarla Alı necə yuxuya getdisə, bir də saatın səhər zənginə oyandı.Alı şöbəyə çatdı ki, axtarışın rəisi onu gözləyir.Onlar qaraja yollandılar.Onlar kolxozun maşın-traktor parkına girən-də gözətçini təşviş içində gördülər.Gözətçi dedi:
-“Rəis”, maşın yoxdu.
-Ə, sən nə danışırsan, necə yəni maşın yoxdu?
Alı tez maşın dayanan yerə getdi.Maşın həqiqətən orada yox idi.Heç elə bil burada maşın da-yanmamışdı.Gözətçini yanına çağırdı:
-Maşını kim aparıb? Düzünü boynuna al, yoxsa… –Alı milis işçisi kimi gözətçiyə öz hökmünü göstərmək istədi.

-“Rəis”,inanmırsan? Get darvazaya vurduğun bloma bax. Gözətçi özü də bu işə mat qalmışdı.Darvaza açılmayıb, başqa yol yox, maşın da gedib.Bu ma-şını cin apardı, şeytan apardı? Alı gedib darvazaya baxdı.Vurduğu blom yerindəydi.Hirsindən dartıb blomu qırdı.Onlar əlləri ətəklərindən uzun geri qayıtdılar. Vəzifə, rütbə əvəzinə rəis əsəbindən Alıya şiddətli töhmət verdi.




**Zaur Ustac** “845” adlı yeni kitabının işıq üzü görməsi münasibəti ilə **Məmməd Mərzili**yə **“Ziyadar” mükafatı** təqdim edərkən.



**Murad MƏMMƏDOV**

**KİMİ**

Bu dünyada şah olasan, bəxtin gülə ,sevinəsən,
Naümid olmayasan, əlacsız avarə kimi.
* * *
Qoyalar hökm edəsən,o sağlıq ola canında,
Ğözəl imkanın ola, küllü- ixtiyarə kimi.
* * *
Acı nədi unudasan, yaxınına qoymayasan,
Sirin söz eşidəsən, dərdlərinə çarə kimi.
* * *
Dərd gələndə yar olasan, inciməyə qoymayasan,
Aşıb-daşa qövr eləyə, ürəyində yarə kimi.
* * *
Dörd tərəfin qohum ola, kənar nədi bilməyəsən,
Sevəsən, seviləsən yaxın ciyərparə kimi.
* * *
Murad, sən də sadə dolan,qəti qoyma adına,
Ləkə düşə kirlənəsən, ağ üstündə qarə kimi.

**YAZDIQLARIM**

Baxıb od tuturam yazdıqlarıma,
Yadda qalacammı, anlayammıram?
Bəzən qaralayıb pozduqlarıma,
Gülürəm, özümü danlayammıram.
* * *
Kimdisə, məni də çıxartdı yoldan,
Bu sakit ömrümə vəlvələ düşdü.
Bəzən bezikirəm bu qeylü-qaldan,
İlahi, arxa dur, gör bu nə işdi.
* * *
Bacara bilmirəm özüm-özümlə,
Nə dala çəkilib boş duranmıram.
Tək-tənha qalanda gecə sözümlə,
Qalıram ortada çaş, duranmıram.
* * *
Bəzən qar-sazaqlı, soyuq bir qışam,
Sanki kimsə mənim qanımı içir.
Elə bil gecələr daş daşımışam,
Hər sözün ağrısı canımdan keçir.
* * *
Nə mala hərisəm, nə vara acam,
Söz yükü çəkirəm, sözdən halıyam.
Bilmirəm yazdığım nəylə qalacam,
Bir onu bilirəm sözün quluyam.

**YAZ**

Ay mənim ruhuma sığal çəkən yaz,
Niyə gecikmisən, bilmirəm niyə?
Tərslikdən canım da üşüyür bir az,
Ruhum ki, isinmir, qızışmır deyə.
* * *
Mən sənə vurğunam, sənə deyəsən,
Nəfəsini duysam, ruhum oynayır.

İlahi, elə bil dirilirəm mən,
Hər bahar gələndə qanım qaynayır.
* * *
Elə bil yox olur ağrı-acım da,
Gül açır könlümdə bənövşə, nərgiz.
Nə pislik, yamanlıq qalmaz yadımda,
Nə də üzülmərəm bunlardan hərgiz.
* * *
Bir qarlı, şaxtalı gündə doğuldum,
Mən qışı sevmədim, yaza vuruldum.
Günəşdən güc aldım, odla yoğruldum,
Mayam işıq oldu, axdım duruldum.
* * *
Nə yaman gecikdin, bu il nə yaman,
Gəl gözlər danışsın, dillər dayansın.
Tamam yoxa çıxsın çiskin, çən, duman,
Gül gülü çağırsın, ruhum oyansın.

**QARDAŞ**
*(Avdı Qoşqara)*
Deyirəm, dünyanın halal insanı,
Tək təmiz adamı sənsən, a qardaş.
Anlayıb bilənə əzizi, canı,
Qanmaza dumansan, çənsən, a qardaş.
* * *
Dumduru su kimi təmizdir adın,
Ağrımaz başını dərdə salmadın.
Halaldan doğuldun, halal yaşadın,
Haramdan uzaqsan, gensən, a qardaş.
* * *
Görəndə bar verir arzun, muradın,
Sevincdən uçmağa olmaz qanadın.
Böyründə, başında qohumun, yadın,
Sevincinə yarı, tənsən, a qardaş.

* * *
Üzündən bəllidir səmimiyyətin,
Baxıram hər kəsə xoşdur niyyətin.
Nə özün dəyişdin, nə xasiyyətin,
Bir azca dəyişsən, dönsən, a qardaş.
* * *
Səni mən hər yerdə misal gətirdim,
İzlədim, çox şeyi səndən götürdüm.
Yaxşı nə bildimsə ruha ötürdüm,
Ruhumda bar verən dənsən, a qardaş.

**YAXINSAN**
*(Həzi Həsənliyə)*
Ruhuma yaxınsan doğmalar qədər,
Bilmirəm bu yanğı haradan keçib?
Nə sənin Kəmərli ağlından gedər,
Nə Murad Faxralı suyundan içib.
* * *
Allahın işindən baş açanmarıq,
Biz adi bəndəyik, əmrə müntəzir.
Ay Həzi, qismətdən heç qaçanmarıq,
O, bizi axtarır, soruşur, gəzir.
* * *
Bir 9 may günü biz tanış olduq,
Sevindik pul tapan uşaqlar kimi.
Yüz dərdi adladıq, bax, yaşa dolduq,
Ağardı saçımız dümağ qar kimi.
* * *
Bəlkə də o fikrə, ağla düşməzdik,
Ümid də, Qorxmaz da bilir ən azı.
Onlar olmasaydı, biz görüşməzdik,
Bu da bir qismətdi, bu da bir yazı.
* * *
Həyatın pozulmaz qanunları var,

Ondan asılıyıq, tabeyik biz də.
Sən, mən icraçıyıq, ağadı onlar,
Onlara bağlıdı taleyimiz də.
* * *
Ay Həzi, darıxma, üzülmə bir də,
İncə dərəsinə səfər edərik.
Yaxşıca dincəlib o gözəl yerdə,
Doğma Faxralıya birgə gedərik.

**NƏFS**
İnsanı pis tamah, pis nəfs öldürər,
Bu yola düşdünsə, axırın yoxdur.
Bəzən sevindirər, bəzən güldürər,
Bəzən də bağrına sancılan oxdur.
* * *
Yağlı bir kəndirdir boynunda sənin,
Gah səni incidər, gah darıxdırar.
Nə qədər yığsan da doymaz gödənin,
Qoymaz dincəlməyə, hey qarıxdırar.
* * *
Kənardan eybəcər görünə bilər,
Amma ki, bu sənin ağlına gəlməz.
Baxarsan, başına min bəla gələr,
Nə olsun, ətrafda bir kimsə bilməz.
* * *
O, elə bir duyğudur, elə bir hissdir,
Uydunsa qaynayır, azalmır, itmir.
O, səni harama səsləyən səsdir,
Şeytana bağlıdır, başından getmir.
* * *
Nəfsinə hakim ol, ey bəni-insan,
Onun girdabında boğulma, ölmə!
Bax, nəfsin önündə əyilsən, sınsan,
Zəifsən, heç kimi günahkar bilmə!

**KİMƏ NƏ?!**

Arzu bitməz, ömür az,
Ölən ruhlar durulmaz.
Mənim kefim sazdan saz,
Ya da pisəm, kimə nə?!
* * *
Dünya böyük, naşı çox,
Ağlı kəmi, çaşı çox.
Dərdim köhnə, yaşı çox,
Ona bəsəm, kimə nə?!
* * *
Ruhum, ənbər qoxuyar,
Sözdən çiçək toxuyar,
Könlüm, sənsiz oxuyar,
Zil, ya pəsəm, kimə nə?!
* * *
Kasıb evdə doğulan,
Bulaq kimi soğulan,
Öz içində boğulan
Sakit kəsəm, kimə nə?!
* * *
Utanıb, sonda gələn,
Hər an yerini bilən,
Tutaq ki, çoxdan ölən,
Batan səsəm, kimə nə?!
* * *
Günah işə mən yadam,
Cəhd eyləmə, ay adam!
Öcəm, tərsəm, inadam,
Ya da nəhsəm, kimə nə?!
* * *
Öz içimdə azıram,
Hər gün nəsə yazıram.

Canım, qəbir qazıram,
Son nəfəsəm, kimə nə?!

**YAĞIŞ**

Yağışı sevirəm, islanmağı yox,
Sanki göz yaşıdı səbri daşanın.
Gurultudan, tappıltıdan daha çox,
Səsinə heyranam, bu tamaşanın.
* * *
Durub pəncərənin önündə bir an,
Baxıb seyr edərəm bu mənzərəni.
Yerin göylə bu təması hər zaman,
Xeyli düşündürər, cəlb edər məni.
* * *
Damlalar yagışın daş-qaşlarıdır,
İlahi, çox şükür cah- cəlalına.
Yağış da Tanrının göz yaşlarıdır,
Ağlayar həmişə yerin halına.
* * *
Bu yağış Allahın bir möcüzəsi,
Yağmasa, bu dünya saralar, solar.
Bəzən bezikdirər, yorar hər kəsi,
Ancaq suya həsrət canlar həzz alar.
* * *
Nə qədər yağsa da, görünməz gözə,
Dünyanı su basmaz, dünya sağ qalar.
Yağış da, dolu da, qar da möcüzə,
Vaxtında yağmasa dünya məhv olar.

**ADAMLAR**

Ey Allaha yaxın olan, əqli kamil sağ adamlar,
Qoymayın insanlıq ölə, qəlbi böyük, dağ adamlar.
* * *
Kömək olun, dayaq olun, sipər olun xurafata,

Bu torpağa yiyə duran, arxa, sütun, tağ adamlar.
* * *
Bir görmədim bəhsə girə, kömək ola kasıblara,
Ömrü boyu dalda qaldı, girəvədə ağ adamlar.
* * *
Baxıram ki, milçək kimi yaman artıb, lap çoxalıb,
Xeyrə, şərə yaramazlar, el içində lağ adamlar.
* * *
Bu Vətəni qoruyun siz, üzü gülsün Muradın da,
Ey yurduna bağlı olan, bir-birinə bağ adamlar.

**AY ÜRƏYİM**

Bənzəməzsən, heç kimə sən,
Yer üzündə, ay ürəyim.
Can evimdə bir dənəsən,
Əvəzin yox, mən nə deyim?
* * *
Sənlə nəfəs alıram mən,
Sənə baglı bir ürəyəm.
Sən olmasan, həmin gündən,
De görüm, nəyə gərəyəm.
* * *
Sən ruhumun işığısan,
Sönsən əgər, ruhum sönər.
Ömrümün yaraşığısan,
Solsan, canım buza dönər.
* * *
Tanrı sevən cüt bəndəyik,
Qovuşmuşuq yaşamağa.
Axır ki, bir bədəndəyik,
Daha nə qoruq, nə qadağa.
* * *
Tanrı bizə bir can verdi,
Dərdimizi bilə-bilə.

Salamladıq neçə dərdi,
Yola saldıq gülə-gülə.
* * *
Sanma, ömür əbədidir,
Daimidir bizdən ötrü.
Nə gedirsə, bizdən gedir,
İncimə hər sözdən ötrü.
* * *
Dünya, sirli bir müəmma,
Gözünü yum, bircə andır.
Yaşa, dolan, çalış, amma,
Sevmə onu, bir yalandır.
* * *
Nə yaşasaq, mükafatdır,
Üç il, beş il, ona kimi.
Bizə qalan təmiz addır,
Qorumuşuq sona kimi.
* * *
Məyus olma, heç vaxt, gülüm,
Nəvələrdir qalan sənə.
Nə ayrılıq, nə də ölüm,
Qaçılmazdır, inan mənə.

**ÇƏKİR**

İnsanı dərd boğur, qarışır başı,
Darda gah sıxıntı, gah ölüm çəkir.
Üzümü yandırır gözümün yaşı,
Gör, yazıq gözlərim nə zülüm çəkir.
* * *
Əlimi uzatsam, göylərə çatan,
Elə bir yerdəyəm, işvə, naz satan,
Gözəllər önümdə, əlimdə kətan,
Nə ruhum oynayır, nə əlim çəkir.
* * *

Allah pis tamahı nəfsindən asıb,
Ömrə qul olmuşam, özümü qısıb.
Duyuram, içimi tor, qurum basıb,
Nə içim isinir, nə çölüm çəkir.
* * *
Ay Murad, karvanın, köçün yoldadı,
Görəcək günlərin hələ daldadı,
Dilimin ucundan başım qaldadı,
Bu dərdi nə ağlım, nə dilim çəkir.

**DEYƏN**
Deyən soyuqlamışam,
Üşüdürəm səhərdən.
Sanki dinməz, sal daşam,
Düşdüm deyən təhərdən.
* * *
Ağrılarım başqadı,
Hamı bilir nədi bu.
Qara günlər başladı,
Limon, şirə, bir də su.
* * *
İştahım yoxa çıxıb,
Hamı bürünüb yasa.
Allah üzümə baxıb,
Şirə var heç olmasa.
* * *
Gur yağışın bazıyam,
Sel, su axır canımdan.
O qədər çox razıyam,
Hoya yetən xanımdan.
* * *
Neçə ildir dərdimi,
Çəkir ömür yoldaşım.
Mən bilmirəm sirdimi?!

Şükür, ağrımır başım.
* * *
Həkim deyil, ay canım,
Bir sadə müəllimdi.
Vallah, billah, nə danım,
Mənim vuran əlimdi.
* * *
Sizcə kimə borcluyam,
Tanrıya, ya xanıma?!
Bəlkə Tanrı qoruyub
Calayıb can canıma.

**MƏHƏBBƏT**
Kim deyir, ağlamaq, göz yaşı tökməkdir, məhəbbət.
Əzizim, can evində sevda əkməkdir, məhəbbət.
* * *
Sevda ki var, ağılla, ruhla idarə olunur,
Demirəm, ağlın alıb, sağ ruhu sökməkdir,məhəbbət.
* * *
Tələsməyib, min sehr ilə, ovsunla qəlb ovlayıb,
Bənna kimi kərpic-kərpic can tikməkdir, məhəbbət.
* * *
Həya, abır olmasa, qiyməti olmaz sevdanın,
Nə bilim, bəlkə də, abırı bükməkdir, məhəbbət.
* * *
Ay Murad, can verib, can aldığın şux baxışlının,
Tək nazını yox, həm qəhrini çəkməkdir, məhəbbət.

**İNCİMƏRƏM**
Səhvlərimi deyən olsa,
Tez silərəm, incimərəm.
Lap malımı yeyən olsa,
Tən bölərəm, incimərəm.
* * *

Söz verdimsə, mən sözümə,
Qul olaram, de üzümə.
Yalan çıxsam, mən özümə,
Ar bilərəm, inciməərəm.
* * *
Düz işimi hey əyənə,
Arxamca nələr deyənə,
Mənə ölüm diləyənə,
Can dilərəm, incimərəm.
* * *
Üzünə maska geyənə,
Tam qaraya ağ deyənə,
Məni başa düşməyənə,
Off!!! Gülərəm, incimərəm.
* * *
Heç ərinmə, son halında,
Cəfa çəksən, yar yolunda.
Rahatca sənin qolunda,
Bax, ölərəm, incimərəm.
* * *
Murada can vermisən,can,
Sənlə nəfəs alır hər an.
Əzizim, dərdinə dərman
San, gələrəm, incimərəm.

**DÜŞÜNCƏLƏR**
Yuz fikir dolaşır beynimdə indi,
Azıram, yol tapıb çıxa bilmirəm.
Elə bir zamandı, elə bir gündü,
Dönüb dünənimə baxa bilmirəm.
* * *
O qədər qarışıq vaxta çatmışıq,
Dərd-azar içində çabalayırıq.
Ömür quş tək uçdu, sanki yatmışıq,

İndi ayılmışıq, ay, gün sayırıq.
* * *
Nə vaxta acıdıq, nə də ömürə,
Bir giley-güzara varmı vəsilə?
Düşünə bilməzdik, qurd tək gəmirə,
Zaman ömrümüzə qənim kəsilə.
* * *
Nə qədər səhvlərin günahı bizdə,
Niyəsə, tənbəllik canımızdadır.
Çox şey arzularıq fikirdə, sözdə,
Əməldən yayınmaq qanımızdadır.
* * *
Bu da bir həyatdır, səhvi, düzüylə,
Öyündük hər zaman öz pulumuzla.
O qədər səhv etdik yadın sözüylə,
Ərindik getməyə öz yolumuzla.
* * *
Bir dəfə gəlirik həyata yalnız,
Səhvləri düzəltmək imkanımız yox.
Tanrı qarşısında qalanda yalqız,
Bax, aciz oluruq onda daha çox.

**RUHLARLA SÖHBƏT**
İlk dəfə deyil ki, ayaq basıram,
Yenə üz tuturam məzarıstana.
İlk dəfə deyil ki, qulaq asıram,
Ruhlarla aramda olan dastana.
* * *
Yuxuda görərəm, uzaqdan baxar,
Mənə yaxın olan, simsar olanlar.
Ayılsam, elə bil yadımdan çıxar,
Gecə əhvalımı xəbər alanlar.
* * *
Deyirlər, ruhlar da izləyər səni,

Bəzən çevrilərlər dayaqlarına.
Elə hey qoruyar, gözləyər səni,
İstəməz daş dəysin ayaqlarına.
* * *
Ruhlar yol ölçərlər, gedib, gələrlər,
Göylərdən asılmış körpü salarlar.
Burda nə baş versə, orda bilərlər,
Çünki mələklərdən xəbər alarlar.
* * *
Bu fani dünyada ömrümüz qısa,
Bizim ruhlara da yer verər göylər.
Oğlumuz, qızımız gəlib nə vaxtsa,
Yəqin bizləri də anar, yad eylər.
* * *
Ruhum sakitdirmi, bilmirəm vallah,
Niyəsə rahatdır, məni incitmir.
Ruhumla yaxınam, dostam, ay Allah,
Hələ ki, yaşamaq həvəsim bitmir.

**ÖLÜM YOLU**
Ayılırıq hər səhər,
Yol tutub yeriyirik.
Dərdimizi bir təhər,
Unudub, kiriyirik.
* * *
Səhv eləsək ,bu yolda,
Bu yolu qısaldarıq.
Başımız qeylü-qalda,
Səhvlə həmişə varıq.
* * *
Baş qarışır gülməyə,
Həyasız bir bəndəyik.
Göz yaşını silməyə,
Əl yetmir, nə gündəyik?!

* * *

Hamı gedir bu yolu,
Sərt yoxuşu, enişi.
Nə sağı var, nə solu,
Nə də geri dönüşü.

* * *

Gedirik, gülə-gülə,
Arzu bitməz, kam çoxdur.
Nə arzula, nə dilə,
Bu yolun sonu yoxdur.

* * *

Ölüm yoludur, bu yol
Otunu biçəcəksən!!!
Şah ol, kim olursan ol!
Bu yoldan keçəcəksən!!!



Səadət QƏRİB

**ALİ BAŞ KOMANDANIM**

Heydər oğlu, qəhrəman,
Tarix yazan sərkərdə.
Xariqələr yaratdın
Sən zəkanla hər yerdə.
* * *
Dəmir yumruqlu adam,
Adın gəzir dillərdə.
Ulu öndər ruhun şad,
Yurdun əmin əllərdə.
* * *
Dünyanı heyran etdin
Vətəninə sevginlə,
Göstərdin öz gücünü
Böyük siyasətinlə.
* * *
Yenə də İlham dedi
Şanlı Azərbaycanım.

Yaşa, yaşa, çox yaşa,
Ali baş komandanım.

**QARABAĞ**
Bir yaraydın bağrımızda,
Acımızda, ağrımızda
Otuz ildir yadımızdan-
Çıxmadın bir an Qarabağ!…
* * *
Yad əlində əsir olan,
Neçə illər yetim qalan,
Sənsiz daim donub, inan
Damarımda qan Qarabağ!…
* * *
Gəldik, bizə, açdın qucaq,
Əbədi yansın bu ocaq,
Sənin ilə bir olacaq,
Ruhum, cismim, can Qarabağ!…
* * *
Günəş doğan səmasına,
Şəhid qoxan havasına ,
Bütün Turan dünyasına,
Şöhrət ilə şan Qarabağ!…
* * *
Ay ulduzum qarşılayır,
Yeni bir tarix başlayır,
Ruhu ilə alqışlayır,
Cabbar, Seyid, Xan, Qarabağ!…

**DÜNYADA ƏDALƏT HAQQ QURAN ELİM**
Sən qədim yurdumsan, Azərbaycanım!!!
Poladlar qanıyla tarixlər yazır.
Mübariz qeyrətli iğid oğullar
Vətəni yolunda ölümə hazır.

* * *
Başını uca tut, Laçınım, Şuşam,
Hər Vətən övladın, sənə min əsgər…
Sənin dayağındır Türkün ulusu,
Bir yanın Dərbənddir, bir yanın Kəngər!!!
* * *
Zəfərdən-zəfərə adlayan,keçən,
Dayanma, dayanma, irəli ordum!!!
Zirvəyə daşıdıq məşəlimizi,
Zülməti nur ilə boyadıq, yurdum!!!
* * *
Günbatan, gündoğan oylağın olmuş!!!
Birləşib yumruq ol, ey Turan elim…
İlhamla Ərdoğan bayrağın olmuş,
Dünyada ədalət, haqq quran elim!!

**ZƏFƏR ƏTIRLI QƏHRƏMAN**
*(Qəhrəman şəhidimiz Yüksəl Əlizadənin xatirəsinə)*
Gəncəmizin mərd Yüksəli
Ucalmısan zirvələrə.
Heç bilmədin qorxu nədir,
Sinə gərdin güllələrə.
* * *
Şərəfli ad daşıyırsan,
Tarixlərdə qalacaqsan!
Ürəklərdə yaşayaraq
sönməz məşəl olacaqsan!
* * *
Böyük Vətən savaşında
Hayqırdın ki, mən də varam…
Azərbaycan mənim elim,
Hər daşını qoruyaram…
* * *
Çatdin elin harayına,

könüllülər sırasında.
Şücaətlə ad qazandın
yaşıdların arasında.
* * *
Neçə yaralı əsgəri
daşıdın öz kürəyində
Neçə arzu, diləyini
apardın öz ürəyində.
* * *
Vətənimin iğid oğlu
Heç bir şeydən çəkinmədin.
Düşdün ölüm sınağına,
Yenə yolundan dönmədin.
* * *
Vətən üçün candan keçib,
Əbədiyyətdə doğuldun.
Qaranlıqdan sabahlara
Daim doğan Günəş oldun!
* * *
Allah dərgahında özün
Vətən boyda uca dağsan.
Zəfər ətirli, qəhrəman
Azərbaycan, Qarabağsan!!!

**ÜŞÜYEN XATİRELER**
Üşüyür hər gecə xatirələrim,
Yoxluğun borana salıb ömrümü.
Saçımda qiş fəslin oğlan çağidir,
Kipriyim qılınctək kəsib səbrimi.
* * *
Daha taqəti yox ürəyimin də,
Yaralı quş kimi çırpınır hərdən.
Bir sevgi kəlməsi dilimin üstdə,
Hər gün can tapşırır, ölür qəhərdən.

* * *

Susuz səhra kimi yanaqlarimi
Nə ciskin, nə yağiş islada bilmir,
Bu nə qərib duyğu, nə haldi Allah?!
Əlim göz yaşima ta çatma bilmir.
* * *
Arzular qocalir, tükənir ömúr,
Ne taqətim qalib, nə də ki halət.
Əzrayıl havaxtdı qapıma gəlmir,
O da ünvanimi unudub əlbət.
* * *
Ağlina gələcəm xatirə kimi,
Evini rəsmimlə döşəyəcəksən,
Əynini qalin gey, soyuqdu, ömrüm,
Qəlbimə qiş gəlib, üşüyəcəksən.

**YÜK**

Çiynində nə qədər yükün var adam
Qəm yükü, dərd yükü, məhəbbət yükü.
Dünənin bir namərd cəllad körpüsü
Bugünün daşıyır sədaqət yükü.
* * *
Əl-ələ gəzirsən xəyallarınla
Hələ yaşayırsan olmaz arınla
Öyürsən özünü “yalan” varınla
Taxt qurub içində səfalət yükü.
* * *
Bir daş qoymamısan daşının üstə
Hər gün bir yaş gəlir yaşının üstə,
Tutmusan vəfanı başının üstə,
Ayağın altinda məşəqqət yükü.
* * *
Bu nimdaş dünyadan sən təzə umma,
Dərdin badəsindən, heç məzə umma,

Peşiman ürəkdən möcüzə umma,
Gözündə apardın səadət yükü..
* * *
Günaha bulaşıb çirklə gedirsən,
Kimin var orada ərklə gedirsən
Bu son mənzilinə yüklə gedirsən.
Əlində bir zənbil qəbahət yükü..

**ŞEİRDƏN EVLƏR TİKİR…**
Bir qadın var: – Gecələr
Baxın gör nələr tikir.
Kərpic-kərpic əruzda,
Şeirdən evlər tikir…
* * *
Bənd-bənd artır arzusu,
Həcəs bəhri duyğusu,
Hər gün qaçır yuxusu,
Şeirdən evlər tikir…
* * *
Divarları misradan,
Pəncərəsi hecadan,
Fikir axır bacadan,
Şeirdən evlər tikir..
* * *
Ruhu bayatı, ağı,
Solub bağçası, bağı
Həsrət qoxur otağı
Şeirdən evlər tikir.
* * *
Yasəmən, süsən qadın
Hər şeyə dözən qadın,
Özündən küsən qadın,
Şeirdən evlər tikir.

**GECƏNİ BALAMTƏK BASDIM BAĞRIMA**

Qaranlıq gecənin səssizliyində,
Seyr etdim, doymadan ulduz selini.
Kim bilir, bəlkə də sen də mənimtək
Tutubsan gecənin bomboş əlini.
* * *
Qəribə dünyadır, qəribə həyat
Yaddaşdan silinməz ötən bircə çağ.
Qəlbimdə yurd salıb pərişan illər,
Onlara hər gecə açıram qucağ.
* * *
Yadigar qoyubsan xatirələri,
Hara qaçıramsa,boylanır acım .
Səhər dalğa-dalğa, gəlir üstümə
Fikirli gecələr olub əlacım.
* * *
Ağlama ürəyim, ağlama, bəsdi
Baxıb köks ötürmə, ötən keçmişə.
Sevgidən danışma heç yeri deyil,
Niyə yas tutursan, olub- bitmişə?…
* * *
Ruhum sevə bilməz daha heç kimi,
Kimsə məlhəm olmaz acı, ağrıma.
Ağlaya-ağlaya kor oldu gözüm,
Gecəni balamtək basdım bağrıma.



Bəsirə ABBASOVA

**AZƏRBAYCANIN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN ƏN QÜDRƏTLİ MÜHAFİZƏÇİSİ – HEYDƏR ƏLİYEV**

Hər bir xalqın tarixində milli mənəvi dəyərlər mühüm yer tutur. Milli mənəvi dəyərlərin yaradıcısı xalqdır. Insanı cəmiyyətdə mənəvi dəyərlər formalaşdırır və davranış qaydalarının formalaşmasına kömək edir. Milli mənəvi dəyərlər bilavasitə millətin mənəviyyatını təcəssüm etdirir və onun milli kimliyi kimi çıxış edir. Başqa xalqlarda olduğu kimi Azərbaycan xalqına da xas olan milli mənəvi dəyərlər var. Azərbaycan öz milli xüsusiyyətləri ilə dünya xalqları arasında özünəməxsus yer tutur.Məhz bu dəyərlərin xalqımızın formalaşmasında, dövlətçiliyimizin qorunmasında xüsusi rolu vardır.Bu milli mənəvi dəyərlər bizim tariximiz, mədəniyyətimiz, dilimiz, dinimiz, adətlərimiz, mentalitetimizdir.

Hər bir xalqın milli azadlıq tarixində xilaskar rolunu oynamış dahiləri vardır. Xalqımızın taleyinə düşən belə dahi şəxsiyyətlərdən də məhz biri, müstəqil Azərbaycan Respublikasının baş memarı adlandırılan ulu liderimiz Heydər Əliyev cənablarıdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dünya tarixində parlaq və silinməz iz qoymuş

dahi şəxsiyyətdir. Milli mənlik şüurunun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başladı. Azərbaycan tarixində milli mənəvi dəyərlərimizin qorunub saxlanmasında və inkişafında milli lider böyük rol oynamışdır. Heydər Əliyev belə hesab edirdi ki, əgər milli-mənəvi dəyərlərimiz yoxdursa, deməli, millətimiz də yoxdur. Ömrü boyu dahi lider mənəvi və dini dəyərlərimizin keşiyində dayanıb.Tarixi abidələrimizin və eksponatlarımızın qədimliyinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması məqsədi ilə mühüm sərəncam onun tərəfindən imzalanmışdır.

Ümummilli lider Heydər Əliyev milli mənəvi dəyərlərin üç komponentini qeyd etmişdir: dil, din, adət-ənənə. Ulu öndərimiz Heydər Əliyev deyirdi: “Hər bir xalqın öz adət-ənənələri, milli-mənəvi, dini dəyərləri vardır. Biz milli-mənəvi dəyərlərimizlə, dini dəyərlərimizlə fəxr edirik. Ən dəyərli və əvəzolunmaz milli dəyərlərimizdən biri də dövlətçilik dəyəridir.Müstəqil dövlətimizin bu gün mövcudluğu xalqımızın min illər boyu əsasını qoyduğu dövlətçilik ənənələrinin davamıdır. Əvəzolunmaz şəxsiyyət olan ulu öndər Heydər Əliyevin sayəsində biz yeni minillikdə buna yenidən nail ola bildik və qoruyub saxlaya bildik.

Bayrağımız, gerbimiz, himnimiz, ərazi bütövlüyümüz, sərhədlərimiz, ana dilimiz milli dəyərlərimizin özəyini təşkil edir. Dövlətçiliyimizin dəyərləri təkcə bizim rəmzlərimiz deyil, həm də mənəviyyatımız, milli ləyaqətimiz olmalıdır.

Görkəmli dövlət xadimi bildirdi ki, milli dövlət bir tərəfdən ərazinin, iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən milli dəyərlərin qorunmasına, müstəqil inkişafın təmin edilməsinə yönəlib.

Ulu öndərin xalqımıza sədaqətinin təzahürlərindən biri də onun ana dilinə qayğıkeş münasibəti idi. Dilimizin inkişafı ölkəmiz üçün hər zaman prioritet məsələ olmuşdur. Beləliklə, müdrik rəhbər xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanmasında ana dilinin əhəmiyyətini yaxşı anlayır, ana dilini bilməyənləri mənəvi kor hesab edirdi. O, deyirdi ki, dilimizin özü bizim üçün çox əzizdir. Dilimiz böyük inkişaf yolu keçmişdir. O, çox zəngin, şirin və cazibədardır. Yeri gəlmişkən, Heydər Əliyev, bu sahədə mühüm addımlar ataraq bu məqsədlə 2001-ci il iyunun 18-də “Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında” fərman imzalamışdır.Belə ki, 2001-ci il avqustun 1-də latın əlifbası ilə Azərbaycan əlifbasına keçid haqqında qərar qəbul edilir. Ümumiyyətlə, azərbaycançılıq ideyalarının inkişafında, milli mənəvi dəyərlərimizin bir hissəsinə çevrilməsində dahi rəhbərin xidmətləri böyükdür.

Bu gün İslam dini xalqımızın milli mənəvi dəyərlərindən biri hesab olunur. 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev bütün sahələrdə olduğu kimi, dini abidələrimizin bərpasında da müəyyən mühüm addımlar atdı. Çünki vaxtilə dağıdılmış məscid və Bibiheybət ziyarətgahı Heydər Əliyevin sərəncamı əsasında dövlət vəsaiti hesabına bərpa edilərək xalqın ixtiyarına verildi.Beləliklə, dini dəyərlərimiz bərpa olundu. Təsadüfi deyil ki,böyük lider, dinimizi xalqımızın milli-mənəvi irsi hesab edirdi.

Milli mənəvi dəyərlərimizdən biri də ölkəmizdə tolerantlığın bərqərar olmasıdır. Ölkəmizdə yaşayan digər xalqların nümayəndələri də heç bir məhdudiyyət olmadan öz dini inanclarına etiqad edirlər. Bu gün ölkəmiz dünyada tolerant ölkə kimi tanınır. Belə ki, respublikamızda 13 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Bizdə bir dini təriqətdən olan insanlar başqalarının inancına hörmətlə yanaşırlar. Ona görə

də tolerantlığı milli-mənəvi dəyərlərimizdən biri hesab etməyə mənəvi haqqımız vardır.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev cənablarıdır. Bu gün Prezident İlham Əliyevi, Azərbaycanın milli-mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük. Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dəyərlərimizin qorunması və təbliğ edilməsi istiqamətindəki Heydər Əliyev Fondunun geniş fəaliyyətini də xalqımız yüksək dəyərləndirir.

Milli dəyərlərin yaşadılması və qorunub saxlanılması istiqamətindəki ulu öndər H.Əliyevin siyasi fəaliyyəti hər zaman aktual olmuş və bu gün də bu siyasət Azərbaycan dövlətçiliyinin ən ümdə vəzifələrindən biri hesab olunur.




“Yazarlar” jurnalının <u>***“Qononarlı yazı”***</u> rubrikası fəaliyyətə başlayıb.
Məqalələr **YAZARLAR.AZ** saytında və jurnalda dərc olunur.

**Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə növbəti töhfə…**
**Milliliyin qoryucusu Mahirə Nağıqızının “Vətən” görüşləri…**

**Ulu öndərimiz deyirdi: “Qadınlar bir belə əziyyət çəkərkən nə istəyirlər? Sadəcə onlara diqqət, qayğı və ehtiram! Bu anlayışlar çox genişdir. Diqqət də, qayğı da müxtəlif formalarda ola bilər. Ancaq kişilər gərək qadınları həmişə yüksəkdə görsünlər, qadınlara gərək xüsusi hörmət etsinlər, qadınlara diqqətlə yanaşsınlar”.**

Ülvilik, zəriflik və gözəllik rəmzi olan qadın adı, ana adı ölkəmizdə həmişə uca tutulmuşdur. Azərbaycan qadını bütün dövrlərdə öz istedadı, zəkası, iradəsi və əzmi ilə milli – mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstərmişdir.

Tariximizin və mədəniyyətimizin neçə-neçə şanlı, parlaq səhifəsi məhz onun adı ilə bağlı olmuşdur. Azərbaycan qadını dünyaya bəşəriyyətin mədəni fikir xəzinəsinin incilərini yaradan ədəbi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər bəxş etmişdir. Xalqımızın təfəkküründə ana məfhumu doğma yurdun, Vətən torpağının təcəssümüdür.

Azərbaycan qadını bu gün artıq ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatının fəal iştirakçısıdır. O, taleyüklü milli məsələlərin həllinə sanballı töhfələr verir. Elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qazandığı nailiyyətlər Azərbaycan qadınının çox böyük potensiala malik olduğunu zaman – zaman təsdiq etmişdir. Zaman keçdikcə, bütün dünyada olduğu kimi, Azərbaycan cəmiyyətində də qadının rolu daha da artır, o, ictimai-siyasi, iqtisadi, mədəni həyatın fəal iştirakçısına çevrilir. Taleyüklü məsələlərin həlli yönündə qərar vermək səlahiyyəti əldə etməklə bu günün lideri rolunu oynayır.Müasir dövrdə qadınlarımız müstəqil Azərbaycanın inkişafına öz dəyərli töhfələrini verir.

Ulu öndərimizin dediyi: kimi “Qadınlar bir belə əziyyət çəkərkən nə istəyirlər? Sadəcə onlara diqqət, qayğı və ehtiram! Bu anlayışlar çox genişdir. Diqqət də, qayğı da müxtəlif formalarda ola bilər. Ancaq kişilər gərək qadınları həmişə yüksəkdə görsünlər, qadınlara gərək xüsusi hörmət etsinlər, qadınlara diqqətlə yanaşsınlar”. Mən bu günlərdə o diqqəti, sevgini, qaygını Naxçıvanda, Naxçıvan Dövlət Universitetində Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü, eyni zamanda, lirik və səmimi şeirlər müəllifi olan Mahirə Nağıqızıya olan münasibətdə gördüm, şahidi oldum, qürurlandım və bir az da kövrəldim.

Naxçıvan Dövlət Universitetində Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə növbəti töhfə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü, eyni zamanda, lirik və səmimi şeirlər müəllifi olan Mahirə Nağıqızı ilə görüş və sözlərinə həsr olunmuş konsert proqramı oldu.




25 may tarixində Naxçıvan Dövlət Universitetində ADPU Beynəlxalq Əlaqələr üzrə prorektor, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova ilə yaradıcılıq görüşü keçirildi.Görüşdə AMEA Naxçıvan bölməsi, AYB Naxçıvan şöbəsi, Naxçıvan Müəllimlər İnstitutunun professor-müəllim heyəti, tələbələr, şəhər ictimaiyyəti iştirak edirdi. Görüşü giriş sözü ilə açan NDU-nun rektoru dosent Elbrus İsayev Mahirə Hüseynovanın elmi və bədii yaradıçılığı haqqənda danışdı və tədbiri aparmaq üçün sözü NDU-nun Tarix-Filologiya fakültəsinin dekanı, dosent Arif Ağalarova verdi. Dosent Arif Ağalarov Mahirə Nağıqızı yaradıçılığı haqqında geniş məruzə ilə çıxış etmişdir. NDU-nun dosenti Xanəli Kərimov, AMEA-nın aparıcı elmi işcisi Ramiz Qasımov, AMEA-nın Naxçıvan bölməsi Dilçilik İnstitutunun direktor müavini dosent Elxan Yurdoglu, Naxçıvan Müəllimlər İnstitutunun Dil və ədəbiyyat

kafedrasının müdiri, dosent Həsənəli Eyvazov, dosent Ruhəngiz Əliyeva tədbirdə ürək sözlərini bildirdilər.

**“Qarabağ Azərbaycandır”**

27 may tarixində Naxçıvan Dövlət Universitetində Mahirə Nağıqızının sözlərinə bəstələnmiş “Qarabağ Azərbaycandır” adlı mahnılardan ibarət möhtəşəm konsert keçirildi. Universitetin İncəsənət fakültəsində keçirilən konsertdə ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edərək qonaqları salamladı. NDU-nin Konservatoriyasının təqdim etdiyi konsert proqramında Naxçıvan Musiqi Kollecinin “Gənclik” instrumental ansamblının da çıxışları alqışlarla qarşılandı. Konsert proqramında ifa olunan “Azərbaycan”, “Vətən”, “Qarabağım güləcək”, “Qarabağ Azərbaycandır”, “Könlümdə biri var”, “Gözlərimin etibarı çox imiş”, “Dönüm başına dolanım”, “Gözəl”, “Yar” mahnıları tamaşaçıların zövqünü oxşadı.

Sonda şairə Mahirə Nağıqızı konsertin təşkilinə görə kollektivə təşəkkürünü bildirdi.Keçirilən görüşü yüksək qiymətləndirərək öz səmimi hisslərini dilə gətirdi. Rəsmi və bədii görüşlərdən duyğulanan şairə vətənində,el- obasında ona göstərilən ehtirama, diqqətə görə NDU-nun rektoru dosent Elbrus İsayevə xüsusi təşəkkürünü bildirib ,konsertin yüksək təşkilatçılığından xüsusi məmnunluq hisslərini bildirdi.

Vətən sənin qədrini məndən yaxşı kim bilər –deyərək tədbirdə bir-birindən gözəl ifalar nümayiş etdirən iştirakçıların təqdim etdikləri ifaları vətən təəssübkeşliyinin bir nümunəsi adlandırdı və keçirilən görüşü yüksək qiymətləndirərək öz səmimi hisslərini bölüşdü.

Rektor şairə Mahirə Nağıqızının sözlərinə bəstələnən mahnıların ali təhsil ocağının səhnəsində məharətlə təqdim olunmasından razı qaldığını qeyd edərək "İstedadlı xalqımızın qanı, canı musiqidir", deyərək universitetin nəzdində fəaliyyət göstərən musiqi kollektivinin uğurlu ifalarını yüksək qiymətləndirdi və az vaxt
müddətində hazırlanan proqramdan razı qaldığəni qeyd etdi. Tədbirin sonunda NDU-nun rektoru dosent Elbrus İsayev Mahirə Hüseynovaya onların dəvətini qəbul edib görüşə gəldiyinə görə təşəkkür etmiş və alimi fəxri ödüllə təltif etmişdir.

**Bura Vətəndir…**

25 may tarixində ADPU-nun Beynəlxalq Əlaqələr üzrə Prorektoru, filologiya elmləri doktoru, professor, tanınmış şairə Mahirə Nağıqızı Hüseynova ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində görüş keçirildi. Görüşdə ADPU-nun Filologiya fakültəsinin elmi işlər üzrə dekan müavini, filologiya üzrə fəlsəfə doktoru Konul Hasanova, Filologiya fakültəsinin dekan müavini Pəri Paşayeva, Müasir Azərbaycan dili kafedrasının müdiri, dosent Könül Səmədova, Ədəbiyyat kafedrasının dosenti Məlahət Babayeva, "Milli Dəyərlər üzrə Maarifləndirmə" İctimai Birliyinin sədri Gülşən Behbud, əməkdar artist Elnur Zeynalov da iştirak etmişdir.

Bölmənin sədri, akademik İsmayıl Hacıyev
çıxışında Mahirə Hüseynovanın tədqiqatçı-alim, gözəl pedaqoq, istedadlı şairə, vətənpərvər
ziyalı oomaqla yanaşı, çoxsaylı monoqrafiya, kitab və məqalələrin müəllifi olan Mahirə Hüseynova yaradıcılığında mənəvi saflıq, vətənpərvərlik, anaya məhəbbət əsas yer tutdugunu qeyd etdi. Onun yaradıcılığında diqqəti çəkən məqamlardan biri də Ümummilli Lider Heydər Əliyevə həsr etdiyi "Ulu Öndərimizin natiqlik məharəti", "Ulu Öndərimizin

natiqlik məharəti xalqımızın ən böyük sərvətidir", "Missiya" və bu kimi əsərləridir. Bu əsərlərində görkəmli dövlət xadiminin həyatı və misilsiz xidmətlərinin öz əksini tapdığını vurguladı.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, Əbülfəz Quliyev, AMEA Naxçıvan Bölməsinin dosentləri Ramiz Qasımov, Zülfiyyə İsmayıl çıxışlarında Mahirə Hüseynovanın yaradıcılığı haqqında çıxış etdilər. Sonda şairə Mahirə Hüseynova yaradıcılığına göstərilən diqqətə görə AMEA-nin rəhbərliyinə minnətdarlığını bildirdi.

**Şərqə açılan qapı… "Türk qapısı" Naxçıvan**

Naxçıvan Dövlət Universitetində 25-27 may tarixlərində davam edən tədbirlərdən biri də I Beynəlxalq İpək Yolu konfransı oldu.

Naxçıvan Dövlət Universiteti, Türkiyənin Qars Qafqaz Universiteti və İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun (İKSAD) birgə təşkilatçılığı ilə keçirilən konfransda 15 ölkədən 300-dən çox məruzəçi iştirak edirdi. Konfrans şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin Dövlət himnlərinin səsləndirilməsi ilə başladı. NDU-nun rektoru Elbrus İsayev konfransı açıq elan edib və tədbirin əhəmiyyəti barədə iştirakçılara ətraflı məlumat verdi. Rektor 44 günlük Vətən müharibəsində qazandığımız parlaq qələbəmiz sayəsində Naxçıvanla Azərbaycanın quru yolunun birləşməsi əsas məsələlərdən olduğunu vurğulayıb. Qeyd olunub ki, Naxçıvan tarixən də nəqliyyat kommunikasiyalarının mərkəzində yerləşən coğrafi ərazi oluduğuna görə tarixi İpək Yolu üzərində mühüm rol oynayıb. Zəngəzur dəhlizinin fəaliyyətə başlamasının gələcək perspektivlərindən danışan rektor əlavə

edib ki, bu tarixi nailiyyət türk dünyası ilə Türkiyə arasında ticarət əlaqələrini genişləndirəcək. “Türk qapısı” adlandırılan Naxçıvan bu məsələdə mühüm rol oynayacaq.Əsas başlanğıcını Çin ipəyini daha uzaq coğrafiyalarda yerləşən, həyatı, yaşam tərzi, sənayesi vaxtilə çox da zəngin olmayan Qərb ölkələrinə çatdırmaqdan götürən İpək Yolu zaman keçdikcə bir ticarət yolu olmaqla bərabər, həm də Şərqdən Qərbə çox geniş bir ərazidə yaşayan xalqların mədəniyyətinin, mənəviyyatının, iqtisadiyyatının, həyat uğrunda mübarizəsinin yönəldici amilinə çevrildi. Böyük İpək Yolu insanlığın inkişaf tarixində əvəzsiz rol oynadı. Müasir dövrdə bu yolun bərpasının zəruriliyi daha çox gündəmdə olan bir məsələdir. Rektor onu da  qeyd etdi ki, Avropa ilə Asiyanı birləşdirən, keçdiyi ərazilərdə yaşayan xalqların həyatında mühüm rol oynayan Böyük İpək Yolu ölkəmizin iqtisadi və mədəni inkişafına da öz müsbət təsirini göstərib. Bu yol ticarətin və bazar münasibətlərinin inkişafına xidmət etməklə yanaşı, həm də bir sıra ölkələr və xalqlar arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynayıb. Bu mənada, beynəlxalq konfransın keçirilməsi strateji mövqedə yerləşən, beynəlxalq nəqliyyat dəhlizi kimi diqqətləri cəlb edən Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələlərinin aktuallığını ön plana çıxarır.

Elbrus İsayev diqqətə çatdırdı ki, İpək Yolunun bərpası ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Ulu Öndərin tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın keçirilməsi haqqında imzaladığı 1998-ci il 7 iyun tarixli Sərəncamı Azərbaycanın dünya birliyi ölkələri ilə inteqrasiyasının gücləndirilməsində müstəsna rol oynayıb. Zəngəzur dəhlizinin fəaliyyətə başlamasının gələcək perspektivlərindən danışan rektor əlavə edib ki, bu tarixi nəaliyyət türk dünyası ilə Türkiyə arasında ticarət əlaqələrini

genişləndirəcək. “Türk qapısı” adlandırılan Naxçıvan bu məsələdə mühüm rol oynayacaq. Elbrus İsayev çıxışının sonunda konfransın işinə uğurlar arzuladı.

Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapu çıxışında belə konfransların keçirilməsinin türkdilli xalqların bir-birinə daha da yaxınlaşması, eləcə də ümumtürk mədəni irsinin təbliğ edilməsi baxımından əhəmiyyətinə toxundu. Konfrans bəşər sivilizasiyasının inkişafında çox mühüm rol oynamış, öz əhəmiyyətini müasir dövrümüzdə də getdikcə daha inadla təsdiqləyən bir tarixi gerçəkliyə həsr olundugunu qeyd etdi. Böyük İpək Yolu insanlığın inkişaf tarixində əvəzsiz rol oynadı. Müasir dövrdə bu yolun bərpasının zəruriliyi daha çox gündəmdə olan bir məsələdir.

Konfransda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq Əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova əməkdaşlıq çərçivəsində türk dünyası ilə bağlı tədbirlərin, eyni zamanda tarixi İpək Yolunun canlandırılmasına dair müxtəlif layihələrin həyata keçirilməsinin vacibliyini qeyd edib.

Konfransda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin, İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun prezidenti Mustafa Latif Emekin, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzovun, Atatürk Universitetinin professoru Hüseyn Yurtdaşın, AMEA Naxçıvan Bölməsinin akademiki Hacıfəxrəddin Səfərlinin, Özbəkistanın İpək Yolu Araştırma Akademiyasının sədri Azamat Akbarovun, onlayn formatda konfransa qoşulan Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayevin, ABŞ-nin Purdue Universitetinin professoru Jamaluddin Husainin, Adana Çuxurova Universitetinin professoru Hakkı

Çiftçinin mövzu ətrafında çıxışları dinlənildi. Sonda Universitetin İncəsənət fakültəsi müəllim və tələbələrinin ifasında konsert proqramı ilə başa çatdı.



Konfransda çox dəyərli elm xadimlərinin, araşdırmaçıların iştirakı bu qənaəti daha da möhkəmləndirir. Konfransda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin, İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnsitutunun prezidenti Mustafa Latif Emekin, Naxçıvan Müəllimlər İnsitutunun rektoru Azad Novruzovun, Atatürk Universitetinin professoru Hüseyn Yurtdaşın, AMEA Naxçıvan Bölməsinin akademiki Hacıfəxrəddin Səfərlinin, Özbəkistanın İpək Yolu Araştırma Akademiyasının sədri Azamat Akbarovun, onlayn formatda konfransa qoşulan Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayevin, ABŞ-ın Purdue Universitetinin professoru Jamaluddin Husainin, Adana Çuxurova

Universitetinin professoru Hakkı Çiftçinin mövzu ətrafında çıxışlar etdilər.

**“Heydər Əliyev və milli dövlətçilik məsələləri”**
27 may tarixində “Naxçıvan” Universiteti və ADA-nın birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və milli dövlətçilik məsələləri” mövzusunda Respublika konfransı keçirildi. Konfransda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, “ADA” Universitetinin rektoru, professor Hafiz Paşayev, ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova ,Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov, Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Mingəçevir Dövlət Universitetinin rektoru, dosent Şahin Bayramov, Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Azad Novruzov, və digər ali təhsil ocaqlarını təmsil edən alim və tədqiqatçılar iştirak edirdi.

Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli açaraq qonaqları salamlayaraq Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində ölkəmizin hər bir bölgəsində olduğu kimi dünyaya göz açdığı qədim Naxçvan torpağında da yüksək səviyyədə, silsilə tədbirlərlə qeyd olunduğunu diqqətə çatdırdı.
Müasir Azərbaycanın qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin ölkəmizin hərtərəfli inkişafı, qüdrətlənməsi naminə misilsiz xidmətlərindən bəhs edən səlahiyyətli nümayəndə bildirib ki, Ümummilli Lider Heydər Əliyevin respublikamıza

rəhbərlik etdiyi bütün dövrlər möhtəşəm quruculuq, tərəqqi və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin qızıl səhifələridir.



İkinci dəfədir Ulu Öndərin vətəni Naxçıvanda olduğunu bildirən “ADA” Universitetinin rektoru, professor Hafiz Paşayev fenomenal siyasətçi Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən, uzaqgörən, praqmatik siyasətinden bəhs edib.  Hafiz Paşayev qeyd edib ki, Ulu Öndər Heydər Əliyev siyasəti həm də bugün Azərbaycanı dünyaya qalib, zəfər qazanmış bir ölkə kimi təqdim edir. Belə ki, biz dahi şəxsiyyətin əsasını qoyduğu dövlət və ordu quruculuğunun məntiqi nəticəsinə II Qarabağ müharibəsində bir daha şahid olduq. Müzəffər Ali Baş Komandan, Prezident Cənab İlham Əliyevin rəhbərliyi altında 44 gün davam edən Vətən

müharibəsində ordumuz düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı.




“Naxçıvan” Universitetinin rektoru, dosent Anar Kazımov konfrans iştirakçılarını salamlayaraq, Heydər Əliyev ömrünün istənilən sahədə çalışan hər bir vətəndaş üçün örnək olduğunu, Ulu öndərin dövlətçiliyimizin, iqtisadiyyatımızın və ölkə həyatının digər vacib sahələrinin formalaşdırılması, Azərbaycançılıq strategiyasının əsaslarının yaradılması istiqamətindəki əzmkar fəaliyyətinin, o cümlədən, onun Naxçıvanın inkişafı naminə gördüyü işlərin neçə-neçə elmi tədqiqatlar üçün tükənməz qaynaq olduğunu qeyd edib.

ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova bildirib ki, Heydər Əliyev artıq 20 ilə yaxındır ki, aramızda yoxdur. Lakin bu gün Azərbaycanın tərəqqisinə və modernləşdirilməsinə yönəlmiş səmərəli dövlətçilik siyasəti  Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.Müasirləşən Azərbaycan Respublikasının özü 100 illiyini böyük ehtiramla qeyd etdiyimiz Ulu Öndərin işıqlı xatirəsinə həsr olunmuş ən böyük əsərdir.

Konfransın mövzusuna toxunan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev böyük idarəçilik təcrübəsinə malik Ulu Öndərin müstəqil Azərbaycan dövlətçiliyinin milli və bəşəri normalara əsaslanan uzunmüddətli konsepsiyasını işləyib hazırladığını və onu dəqiqliklə həyata keçirdiyini bildirib.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxışında ölkəmizin milli dövlətçilik ənənələrinin qurulmasında və inkişafında misilsiz xidmətləri olan dahi rəhbər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin ən yeni tariximizdə müstəsna yer tutduğunu bildirib. Elbrus İsayev qeyd edib ki, yüksək insani keyfiyyətlərinə, mükəmməl dövləti idarəetmə bacarığına, xalqa xidmət mədəniyyətinə görə Heydər Əliyev dünyada nadir tarixi şəxsiyyətlər sırasındadır.

Mingəçevir Dövlət Universitetinin rektoru, dosent Şahin Bayramov diqqətə çatdırıb ki, bu gün müstəqil Azərbaycan dövlətinin yaşaması, qüdrətli ölkə kimi təşəkkülü üçün ümummilli lider Heydər Əliyevə minnətdarıq. Bunu demək yerinə düşər ki,  hər bir vətəndaşımızın qəlbində əbədiyaşarlıq zirvəsini fəth etmiş Heydər Əliyev əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlər, alternativsiz dövlətçilik konsepsiyası, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində olan güclü Azərbaycan dövlətini miras qoyub.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Azad Novruzov çıxış edərək bildirib ki, dünya şöhrətli siyasətçi və

dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 40 ilə yaxın bir dövr ərzindəki bənzərsiz fəaliyyəti Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr olunub.
Respublika konfransının ilk günü “ADA” Universiteti və “Naxçıvan” Universitetinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Milli Dram Teatrında keçirilən konsert proqramı ilə başa çatdı.

**Müəllif: Gülşən BEHBUD**
***“Milli Dəyərlər üzrə Maarifləndirmə” İctimai Birliyinin sədri, Prezident mükafatçısı, jurnalist.***



# TƏQDİMATLAR

“Yazarlar” jurnalının ***“TƏQDİMATLAR”*** rubrikası fəaliyyətə başlayıb.
Foto-məqalələr **YAZARLAR.AZ** saytında və jurnalda dərc olunur.





5 may 2023-cü il tarixində Azərbaycan Yazıçılar Birliyində şair-jurnalist , Prezident mükafatçısı, Milli Dəyərlər üzrə Maarifləndirmə İctimai Birliyinin sədri **Gülşən Behbud**un Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş **"100 ilin İmzası"** **kitabının təqdimat mərasimi olub.**

***Yazarlar" jurnalının baş redaktoru, şair-publisist*** **Zaur Ustac** **"100 ilin İmzası"**adlı yeni kitabının işıq üzü görməsi münasibəti ilə **Gülşən Behbuda** yazarlar camesi adından hər müəllifə yalnız bir dəfə veilən **"Ziyadar" mükafatı**nı təqdim edib.


"ZİYADAR"




100 ilin
İMZASI



**DOĞUM GÜNÜ TƏBRİKİ**

***10 iyun Səadət Qəribin doğum günüdür! "Yazarlar" doğum günü münasibətilə tanınmış şair, yazar Səadət xanımı təbrik edir, yaradıcılıq uğurları və sağlıqlı ömür arzulayır.***

**“YAZARLAR” FOTO QALEREYA, JURNALI PDF**




**Jurnalımızın İctimaiyyətlə əlaqələr üzrə meneceri Nəzakət EMİNQIZI** Xalq yazıçısı ***Çingiz Abdullayevə*** *“Vintsas” mükafatını təqdim edərkən. Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi* **(26.05.23-Bakı)**

**HAZIRLADI: TUNCAY ŞƏHRİLİ**

QEYDLƏR




**ÇİNGİZ ABDULLAYEVİN YAZILARI**
**ZAUR USTACIN YAZILARI**
**SEVİL GÜL NURUN YAZILARI**
**GÜLŞƏN BEHBUDUN YAZILARI**
**MƏLAHƏT HÜMMƏTQIZININ YAZILARI**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

- "YAZARLAR" JURNALI
- **"XƏZAN" JURNALI**
- PDF KİTAB ARXİVİ

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

===========================================

<<<<<<**WWW.YAZARLAR.AZ** və **WWW.BİTİK.AZ** >>>>>>

**“TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!”**

Jurnal bu layihə çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur.

**Redaksiyanın ünvanı:** Az-1012, Bakı, M.Xiyabani-14a
Dövlət qeydiyyatı: № 2319, 16.08.2007-ci il.
Əvvəlki illərdə 15 xüsusi buraxılışı olub.
Dövri olaraq 2021-ci ildən çıxır.

E-mail: zauryazar@mail.ru

Rəsmi saytı: **WWW.YAZARLAR.AZ**
Telefon: (012) 430-14 -81 (+994) 70-390-39-93

“Yazarlar”ın redaksiyasında yığılıb səhifələnir,
“El kitab çapı” mərkəzində çap olunur.
Çapa imzalanıb: 04.06.2023
Sifariş: №:44
Format: A 5
Tiraj:100.
Elektron variant var.
Qiyməti: PULSUZ.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.